Günəş Şərqdən doğur!
№ 117 (5398), 2021-ci il
Qiymәti 40 qәpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
6 iyul 2021-ci il (çərşənbə axşamı)



## "Qurtuluş-93" MTK rəhbərinin həyat yoldaşı qəza törədib

Gülnar Hüseynova sükana nəzarəti itirib, üç avtomobil toqquşub

(Səh.5)




## İstiqlal mücahidi: Nəsib bəy Yusifbəyli anıldı

İyul ayının 3-də Azərbaycan İlahiyyat İnstitutu (Aİİ) və Azərbaycan "Türk Ocağı"nın təşkilatçılığı ilə Azərbaycanın görkəmli dövlət və ictimai-siyasi xadimi Nəsib bəy Yusifbəylinin anadan olmasının 140 illiyi münasibətilə "İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu" mövzusunda elmi-praktiki konfrans keçirilib.

(səh.8)

## Bakı haqlıdır

"...İrəvan KTMT-nin dəstəyindən məhrum olacaq və..."



KTMT-nin baş katibi Stanislav Zas deyib ki, Ermənistanın cənubu Zəngəzurda Azərbaycanla sərhəddə yaranmış vəziyyət Kollektiv Təhlükəsizlik Müqaviləsinin (KTMT) Nizamnaməsinin təsir dairəsinə düşmür.

(səh.5)

# Son hədəfimizə az qaldı

## Ağdamda basdırılan minaların xəritəsi dəqiqdi...



"Əgər saxta olsaydı, Füzuli və Zəngilan rayonları ətrafında basdırılan xəritələrlə bağlı razılaşma olmayacaqdı"

(səh.4)

# Xəzərdəki palçıq vulkanı təşviş yaratdı



Vulkanın ardınca zəlzələ baş verib, Xəzər seysmoloji aktivlik müşahidə olunur

(səh.2)

## Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı Azərbaycana gəlib

(səh.2)

## Şuşada Üzeyir Hacıbəylinin heykəli ucaldılacaq

(səh.4)

## İfadə verdilər

Erməni terrorçu silahlı birləşmə üzvlərinin məhkəmə prosesi davam etdirilib

(səh.2)

## Daha 62 nəfər koronavirusa yoluxub

33 nəfər sağalıb, son sutkada ölən olmayıb

(səh.5)

# Xəzərdəki palçıq vulkanı təşviş yaratdı

**Xəzər dənizində zəlzələ baş verib. Bu barədə Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzi məlumat yayıb.**

"Zəlzələlərin tədqiqatı bürosunun məlumatına əsasən, yerli vaxtla saat 04:02-da Xəzər dənizində zəlzələ qeydə alınmışdır", - məlumatda bildirilir.



Vulkanın ardınca zəlzələ baş verib, Xəzər seysmoloji aktivlik müşahidə olunur

Qeyd edək ki, ötən gün axşam saatlarında Xəzər dənizində partlayış baş verib. İlkin olaraq partlayışın ""Ümid" neft-qaz yatağında baş verdiyi ehtimal edilsə də, sonradan SOCAR-ın mətbuat xidməti 4 iyul 2021-ci il tarixində axşam saatlarında dəniz istiqamətində görünmüş alov təzahürü ilə əlaqədar, SOCAR-ın heç bir sənaye obyektinə zərər dəymədiyini bildirib.

Dünən səhər erkən saatlarda Fövqəladə Hallar Nazirliyin Aviasiya dəstəsinin helikopteri cəlb olunmaqla Xəzər dənizində kəşfiyyat uçuşları zamanı dənizin Salyan rayonu istiqamətində sahildən, təqribən, 30 kilometr məsafədə Daşlı adasında, ilkin müşahidələrə əsasən, palçıq vulkanının püskürməsi faktı aşkar olunub.

Qeyd olunub ki, hazırda vulkanın kraterində nisbətən kiçik alov müşahidə olunur.

Ekspertlər Xəzərdə baş verən vulkanın və zəlzələnin dənizdəki seysmoloji aktivliyin təzahürü olduğunu bildirirlər.

Qeyd edək ki, vulkan və zəlzələ nəticəsində hər hansı mülki və sənaye əhəmiyyətli obyektə, canlıya zərər dəyməyib.

**4 qurumun mütəxəssislərindən ibarət ekspedisiya qrupu yaradılıb**

"Hazırda Bakı və Abşeron yarımadasında küləkli hava şəraiti ilə əlaqədar gəmilərin sözügedən əraziyə yaxınlaşmasında müəyyən çətinliklər yaranıb".

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin müdiri Rasim Səttarzadə deyib.

Onun sözlərinə görə, Ekologiya və Təbii Sərvətlər, Fövqəladə Hallar Nazirlikləri, SOCAR və AMEA-nın mütəxəssislərindən ibarət ekspedisiya qrupu Xəzər dənizinə və onun ətraf mühitinə təsirlərin müəyyənləşdirilməsi, mövcud ekoloji vəziyyətin qiymətləndirilməsi məqsədilə Əlif Hacıyev elmi-tədqiqat gəmisi ilə dənizə çıxacaq və təhlillər aparacaq.

**AMEA: Hadisə yerində hər hansı tədqiqat işinin aparılması qeyri-mümkündür**

AMEA Daşlı adasında vulkan püskürməsi ilə əlaqədar məlumat yayıb.

Məlumatda deyilir:

"Ötən axşam Xəzər dənizində güclü alovlanma ilə müşaiyət olunan hadisənin baş verməsi haqqında məlumatlar yayılmışdır. SOCAR və FHN-nin rəsmi məlumatlarına görə hadisə palçıq vulkanının püskürməsi ilə bağlı olub. Bu haqda müvafiq video və foto materiallar da paylaşılıb.

Aparılan dəqiqləşdirmələr nəticəsində məlum olmuşdur ki, dünən təxminən 21:50 radələrində püskürməsi qeydə alınan vulkan Bakı arxipelaqı adlanan neftli-qazlı rayonda yerləşən Daşlıdır. Vulkan Bakıdan təxminən 75 km cənub-qərbdə yerləşir. Azərbaycanın aktiv vulkanlarından hesab olunur. 1920 və 1945-ci illərdə indiki kimi odlu püskürmələri qeydə alınmışdır.

Daşlı vulkanın güclü püskürməsi nəticəsində qeydə alınan alov sütununun hündürlüyü 500 m hündürlükdən də artıq olmuşdur. Bu da çox güman kimi sözügedən vulkanın uzun müddət ərzində püskürməməsi və böyük enerji toplaması ilə əlaqədar olmuşdur.

Şimalda yerləşən nisbətən böyük ada vulkanlarına, o cümlədən Səngi-Muğan, Xarə-Zirəyə görə Daşlının püskürdüyü palçıq kütləsi kiçik sahədə yayılmışdır. Vulkanın dənizdə yerləşməsi və palçığın gec quruması ilə əlaqədar, hazırda, hadisə yerində hər hansı tədqiqat işinin aparılması qeyri-mümkündür".



## Prezident yolların tikintisinə 6,8 milyon manat ayırdı

**Prezident İlham Əliyev "Salyan rayonunun Salyan-Neftçala magistralını Kür Qaraqaşlı, Beştalı, Cəngan, Xocalı və Ərəbqardaşbəyli kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.**

Sərəncamla Salyan-Neftçala magistralını 6 min nəfər əhalinin yaşadığı Kür Qaraqaşlı, Beştalı, Cəngan, Xocalı və Ərəbqardaşbəyli kəndləri ilə birləşdirən avtomobil yollarının tikintisi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri)" üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş məbləğin 6,8 milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

## Türkiyə Hərbi Hava Qüvvələrinin komandanı Azərbaycana gəlib

**Türkiyə Respublikasının Hərbi Hava Qüvvələri (HHQ) komandanı, ordu generalı Hasan Küçükakyüzün rəhbərlik etdiyi nümayəndə heyəti iyulun 5-də Azərbaycana işgüzar səfərə gəlib.**

Müdafiə Nazirliyindən "Şərq"ə verilən məlumata görə, səfər çərçivəsində Azərbaycan ilə Türkiyə HHQ-ləri arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılacaq, əlaqələrin genişləndirilməsi imkanları nəzərdən keçiriləcək.

## Ermənistanda təhlükə

### Paşinyan xüsusi komissiya yaratdı



**Bu il Ermənistanda quraqlıq təhlükəsi var. Bunu Sputnik Ermənistan-a açıqlamasında ekoloq Karina Danielyan bildirib.**

Danielyan Ermənistan Baş nazirinin səlahiyyətlərini icra edən Nikol Paşinyanın qurumlararası komissiyanın yaradılması haqqında qərarını da məhz bununla izah edib.

Qeyd edək ki, Paşinyanın qərarı ilə Ermənistanda mümkün quraqlıq və ya su azlığı, onların nəticələrinin aradan qaldırılması və ya azaldılması ilə bağlı koordinasiya işləri üçün qurumlararası komissiya yaradılıb.

"Quraqlıq təhlükəsi yalnız bizdə deyil, bütün dünyada var. Lakin təbii-iqlim risklərini nəzərə alsaq biz bu problemə daha çox diqqət ayırmalıyıq. Problem həqiqətən də ciddidir", - deyə Danielyan bildirib.

Onun sözlərinə görə, Ermənistanın su anbarlarında olan suyun həcmi narahatlıq doğurur. Su anbalarında suyun az olmasının səbəbi isə müxtəlifdir. Ekoloqun fikrincə, bu ilk növbədə mövsümün quraq keçməsi ilə bağlıdır:

"Bundan əlavə, su anbalarında olan su qanunsuz olaraq istifadə olunur. İnsanlar istifadə olunan suya görə ödəniş etməmək üçün müxtəlif yollara əl atırlar".

Danielyan, eyni zamanda Ermənistanda su anbarlarının vəziyyətinin acınacaqlı durumda olduğunu vurğulayıb.

# İfadə verdilər

## Erməni terrorçu silahlı birləşmə üzvlərinin məhkəmə prosesi davam etdirilib

Ermənistan vətəndaşlarından ibarət terrorçu silahlı birləşmənin daha bir qrupunun - Karapetyan Rafik Robertoviç, Qolayan Qurgen Hovannesoviç, Tadevosyan Hrayr Seryojeviç, Maloyan Vaqarşak Merojanoviç, Yerğiazaryan Sasun Seyranoviç, Vardanyan Arsen Araikoviç, Bahrekyan Vahagen Edikoçiv, Soğomanyan Setrak Samveloviç, Dilanyan Arman Vazgenoviç, Martoyan Manuk Xovanesoviç, Anbardanyan Vels Karapetoviç, Mikaelyan Andranik Vazgenoviç, Qriqoryan Feliks Arşakoviç barəsindəki cinayət işi üzrə məhkəmə prosesi dünən davam etdirilib.



APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azad Məcidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslər ifadə veriblər.

Hakim qeyd edib ki, bütün təqsirləndirilən şəxslərin dindirilməsi həyata keçirilib.

Daha sonra prosesdə şahid qismində Azərbaycan Ordusunun iki hərbi qulluqçusu ifadə verib.

Hərbçilər ifadələrində bildiriblər ki, ermənilərin Hadrut istiqamətində özlərinə mövqe tutması ilə bağlı onlara məlumat daxil olub: "Dekabrın 12-də Əlican kəndi yaxınlığında bizə həyəcan siqnalı verildi. Biz həmin istiqamətdə irəlilədik. Bizə dedilər ki, onlar dağdan aşağı enirlər. Onları mühasirəyə aldıq. Təslim oldular, silahlarını təhvil götürdük. Onları bazamıza gətirərək, adiyyatı üzrə təhvil verdik. Ayın 14-də daha iki nəfəri zərərsizləşdirərək təhvil vemişik".

Proses iyulun 12-də davam etdiriləcək.



"Bizə dedilər ki, Qarabağda, Suriyada, Liviyada, Aralıq dənizinin şərqində nə işiniz var?". Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Sakaryada Tank fabrikinin kollektivi ilə görüşdə bildirib. Türkiyə lideri vurğulayıb ki, bunu deyənlər ya dünyadan xəbərsizdir, ya da düşmən mövqedə dayananlardır: "Biz Liviyada da varıq, Azərbaycanda da varıq, Suriyada da varıq, Aralıq dənizinin şərqində də varıq və bundan sonra da olacağıq. Gələcək nəsillərə qoya biləcəyimiz ən böyük miras hər sahədə olduğu kimi, müdafiə sahəsində də olacaq, bunun üçün yatırım edirik".

# Türkiyə Qarabağda həmişə var olacaq

## "Ərdoğan Ankaranın hərbi aktivliyini artırmağa mane olan "zəncirləri" qırmaq istəyir"

Qardaş ölkə rəhbərinin Qarabağla bağlı səsləndirdiyi fikirləri "Şərq"ə dəyərləndirən siyasi şərhçi, jurnalist Aqşin Kərimov deyib ki, Ərdoğanın bəyanatları Ankaranın bölgədə dayanıqlı güc mərkəzi kimi qalacağına işarədir. Ekspertin sözlərinə görə, Ankara Liviyada, Şərqi Aralıq dənizində, Suriyada, İraqda hərbi iştirakını və siyasi iradəsini gücləndirdikdən sonra regional gücə çevrilə bilib. İndi isə yeni coğrafiyaya - Cənubi Qafqaza da pənah gətirib: "Türkiyə Ağdamdakı atəşkəsə nəzarət üzrə Birgə Monitorinq Mərkəzində Rusiya ilə bərabər hüquqlu mövqeyə malikdir. Bununla belə Ankaranın bölgədə hərbi iştirakı Moskva ilə nisbətdə məhduddur. İndi Ərdoğan Türkiyənin hərbi aktivliyini artırmağa mane olan "zəncirləri" qırmaq istəyir və zamanla bunun gerçəkləşəcəyi qaçılmaz hala gəlir. Türkiyə liderinin çıxışında "Biz Liviyada da, Azərbaycanda da varıq, Suriyada da Şərqi Aralıq dənizində də varıq, olmağa da davam edəcəyik" deməsi də Ankaranın xarici siyasət strategiyasının perspektiv planlarının ümumiləşdirilmiş bəyanıdır. Ərdoğanın açıqlaması Antalyada baş tutan Mövlud Çavuşoğlu-Sergey Lavrov görüşü kontekstində də diqqət çəkir. Göstərir ki, Kremllə Türkiyə arasında Qarabağa dair fikir ayrılıqları çoxdur və Çavuşoğlu-Lavrov görüşündə Rusiya Ankaranı hərbi iştirakı məhdudlaşdırmaq üçün inandırmağa çalışıb. Lakin Ankara Kremldən təqdim edilən "dəlillərə" etibar etmir və regionda güclənmək üçün hərbi iştirakı mütləq zərurət hesab edir".

**Analitikə görə, Kremlin narahatlıqları Şuşa Bəyannaməsindən sonra artmağa başlayıb:** "Rəsmi səviyyədə açıq deyilməsə də, Rusiya hakimiyyətinə yaxın resurs və ekspertlər tərəfindən bu qısqanclıq dilə gətirilir. Bu mənada Ərdoğanın açıqlaması eyni zamanda Şuşa Bəyannaməsinin praktiki icrasında Ankaranın prinsipial və qətiyyətli mövqedə dayanacağının göstəricisidir. Şuşa Bəyannaməsi Azərbaycanın təhlükəsizliyinin yeni geosiyasi şərtlər altında Türkiyə tərəfindən zəmanətə alınmasıdır. Bu kontekstdə cənab Ərdoğanın "var olacağıq" ismarıcı Bakı üçün də əhəmiyyətli hesab olunur. Ərdoğan əslində bildirir ki, Qarabağda bundan sonra genişmiqyaslı təxribatlar olarsa, Ankara birbaşa müdaxilə imkanlarından yararlanacaq. Böyük güclər, o cümlədən Rusiya və Qərb Azərbaycanın müharibədə qazandığı qələbədən sonra Türkiyə ilə hesablaşmağa məcburdur".

**İsmayıl Qocayev**



# Regiona sülh gələcək

## "Ermənistan və Azərbaycan Qərbin səyləri ilə ikitərəfli mülayimləşmə prosesinə doğru irəliləyir"

**"Qarabağ münaqişəsinin 1988-ci ildən sonrakı tarixini bilənlər anlamış olmalıdırlar ki, Rusiya hər zaman situasiyanı öz xeyrinə dəyişib. Məsələn, 1994-ci il Atəşkəs razılaşması Qərbin ciddi səylərindən sonra mülayimləşmə prosesinin nəticəsi idi".**

Bu sözləri 15 terrorçunun qarşılığında 92 minlik mina xəritəsinin verilməsinə dair "Şərq"ə danışan hərbi-siyasi ekspert Həşim Səhrablı dedi.

Ekspertin fikrincə, baş verənlər Moskvanın imperialist iddialarının göstəricisidir: "O vaxt Rusiya prosesin ciddi xarakter aldığını görüb kənarda qalmamaq üçün bölgədəki əsas rol funksiyasını işə saldı və tərəflər son razılığa MDB formatında gəldi. Bu gün də eyni proses yaşanır. Ermənistan və Azərbaycan Qərbin səyləri ilə ikitərəfli mülayimləşmə prosesinə doğru irəliləyir. Hətta ilk təcrübə də Ağdam rayonu üzrə minalanmış ərazilərin xəritəsinin erməni terrorçularla dəyişdirilməsi idi. Gürcüstan burada sadəcə Qərbin istəkləri formasında hərəkət edirdi. Beləcə Rusiya Azərbaycan və Ermənistan arasında "arabulucu" rolunu itirməmək üçün, mövcud situasiya qaydalarına uyğun yeni siyasi istiqamət götürmüş oldu. Bu isə ondan xəbər verir ki, Azərbaycan və Ermənistan tərəfləri artıq özləri ikili münasibətlər kontekstinə daha çox ümid edir, nəinki imperial maraq sahibi güclərin təsirlərinə...".

**Kənan**

# KTMT İrəvanın arzusunu ürəyində qoydu



## Təşkilat mövqeyini açıqladı ki, sərhədlərin müəyyənləşməsinə qarışa bilməzlər

**"Son bir neçə ay ərzində İrəvanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan dövlət sərhədində bəzi süni gərginliklər və insidentlər yaşanmaqdadır. Təbii ki, yaranmış bu gərginlik və ajiotaj təkcə region ölkələrini deyil, eyni zamanda, regional və beynəlxalq təşkilatları da narahat etməkdədir".**

Bu sözləri siyasi analitik Samir Hümbətov deyib.

O, daha ətraflı "Şərq"ə danışıb: "Hər kəs vəziyyətin nədən ibarət olduğunu bilir. Həmçinin baş verən proseslərdə düşmən ölkənin xüsusi payının nə qədər çox olduğu da məlumdur. Ona görə Ermənistanın üzv olduğu təşkilatlar baş vermiş insidentlərə o qədər ciddi yanaşmamaqla yanaşı, eyni zamanda bunu böyütməyə gərək olmadığını bildirirlər. KTMT baş katibi Stanislav Zasın söylədiyi fikirlər də bu qəbildəndir. O, Ermənistan-Azərbaycan dövlət sərhədində baş vermiş insidentlə bağlı məsələyə münasibət bildirərkən deyib ki, Ermənistanın cənubunda Azərbaycanla yeni sərhədin müəyyənləşdirilməsiylə əlaqədar olaraq situasiyanın gərginləşməsi sərhəd insidentidir və KTMT-nin kollektiv müdafiə haqqında nizamnaməsindəki müddəalara müvafiq deyil".

Stanislav Zasın söylədiklərindən belə qənaətə gəlmək olar ki, KTMT Ermənistana izah etmək istəyir ki, sən hər ağlına gələn hadisəni törədib, bizi də həmin hadisədə səni müdafiə etməyə məcbur edə bilməzsən. Sərhədlərini pozacaq hansısa hadisə yoxdursa, "dilini şirin elə". KTMT-yə üzv ölkələrdən Belarusiya və Qazaxıstanın Azərbaycanla sıx siyasi, strateji və iqtisadi əlaqələrinin olduğunu nəzərə alsaq, deməli, Ermənistanın belə cavablar alacağı yenə də gözləniləndir. KTMT baş katibi Stanislav Zasın Ermənistanın ümidini belə qırması onu göstərdi ki, erməni yalanları "maraqlı nağıllar" siyahısından çıxmağa başlayıb".

**Kənan**

"İyulun 3-də Ermənistan işğal dövründə Füzuli və Zəngilan rayonlarında basdırdığı təqribən 92 min tank və piyada əleyhinə minalara dair xəritələri Azərbaycan tərəfinə təqdim edib. Bu, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən xarici siyasətinin və diplomatiyamızın uğuru kimi dəyərləndirilməlidir".



*Bu fikirləri Milli Məclisin deputatı Vüqar Bayramov "Şərq"ə açıqlamasında deyib.* O qeyd edib ki, bununla yanaşı, mina xəritələrinin təqdim olunması məskunlaşma prosesinin proqnozlaşdırıldığından daha qısa müddətə rellaşmasına səbəb ola bilər: "Belə ki, hazırda bərpa və yenidənqurma işləri üçün ən ciddi əngəllərdən biri məhz həmin ərazilərimizdə işğal dövründə ermənilər tərəfindən kifayət qədər çoxlu sayda minaların basdırılmasıdır. Xəritələrin təqdim edilməsi minadan təmizləmə müddətini qısaltmaqla infrastruktur işlərini sürətləndirəcək. Milli Məclisdə təmsil etdiyimiz Füzuli rayonu keçmiş təmas xəttində yerləşdiyi üçün düşmən qonşularımız tərəfindən bu ərazilərimizdə çoxlu minalar yerləşdirilib. Füzuli rayonunun işğaldan azad olunan ərazilərində hazırda Beynəlxalq Hava Limanının tikintisi daxil olmaqla regional əhəmiyyət daşıyan infrastruktur işləri həyata keçirilir. İnfrastrukturun formalaşmasından sonra inzibati, sosial və yaşayış binalarının inşası üçün ərazinin minalardan təmizlənməsi çox vacibdir".

# Ən böyük əngəl aradan qalxdı

## *Mina xəritələrinin verilməsi məskunlaşdırma prosesini sürətləndirəcək*

V.Bayramov qeyd edib ki, işğaldan azad olunan ərazilərimizdə məskunlaşma 4 mərhələdə aparılacaq: "Birinci mərhələdə minalardan təmizlənmə, dəymiş ziyanın qiymətləndirilməsi, ikinci mərhələ infrastrukturun formalaşdırılması, o cümlədən kommunal xidmətlərə əlçatanlığın təmin edilməsi üçün xüsusi şəbəkənin yaradılmasıdır. Üçüncü mərhələ sosial və və inzibati binaların inşa edilməsi və dördüncü mərhələ vətəndaşlarımızın dədə-baba yurdlarına qayıtması və məskunlaşmasıdır. İnanırıq ki, bu mərhələləri daha qısa zamanda reallaşdırmaq mümkün olacaq".

**Aynurə Pənahqızı**

# Son hədəfimizə az qaldı

## Ağdamda basdırılan minaların xəritəsi dəqiqdi...



**"Əgər saxta olsaydı, Füzuli və Zəngilan rayonları ətrafında basdırılan xəritələrlə bağlı razılaşma olmayacaqdı"**

Bakıda erməni diversantlarının məhkəməsində onların bəzilərinə 6 ay iş kəsildi. Bu o demək idi ki, həmin ermənilər azadlığa buraxılmalıydı. Çünki onlar artıq 6 aylıq həbs müddətini tamamlamışdılar. Belə də oldu. Diversantlar Ermənistana təhvil verildi və Azərbaycan Füzuli və Zəngilan istiqamətində basdırılan minalanmış ərazilərin xəritəsini əldə etdi. Azərbaycan cəmiyyətində son proseslə bağlı əsasən iki sual səslənir. Rusiyanın prosesdə iştirakı hansı amillərlə əlaqəli idi? Minalanmış ərazilərin xəritəsi nə dərəcədə dəqiqdir?

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu vurğulayıb ki, Rusiyanın Ağdam ətrafında minalanmış ərazilərin xəritəsinin Azərbaycana təhvil verilməsində rolu olmadı.** Əsas vasitəçi kimi Gürcüstan, Avropa İttifaqı və ABŞ təmsilçiləri çıxış etdilər. Ekspertin sözlərinə görə, müharibə bitdikdən sonra ilk dəfəydi ki, Azərbaycanla Ermənistan arasında Rusiyanın iştirakı olmadan razılaşma əldə edildi: "Bu hal Kremli narahat etməyə bilməzdi. Rusiya Azərbaycan və Ermənistan arasında 10 noyabr və 11 yanvar bəyanatlarının müəllifi kimi Qarabağla bağlı proseslərə nəzarəti yalnız Türkiyə ilə bölüşmək məcburiyyətində qalmışdı. ABŞ və Avropa İttifaqı, o cümlədən Rusiya ilə diplomatik münasibətləri olmayan qonşu Gürcüstan oyundankənar vəziyyətdə idi. Ona görə də bu 3 mərkəzin Rusiyanın xəbəri olmadan Azərbaycan və Ermənistanla xəritələr və əsir diversantlar ətrafında apardığı danışıqlar və əldə etdikləri nəticə Kremli hərəkətə keçirdi. Moskvanın tapşırığıyla Rusiyanın Qarabağdakı hərbi kontingentinin rəhbəri Rüstəm Muradov Bakı və İrəvanla intensiv danışıqlara başladı. Rüstəm Muradovun əldə etdiyi nəticə ABŞ, Avropa İttifaqı və Gürcüstan təmsilçilərinin əldə etdikləri birgə nəticədən az əhəmiyyətli olmadı. Əgər 3 mərkəz 15 ermənini bir xəritəyə dəyişmişdilərsə, Rüstəm Muradov 15 ermənini iki rayonun xəritəsinə dəyişməyə müvəffəq oldu".

**E.Şahinoğlu hesab edir ki, əslində Qarabağla bağlı bütün məsələlərin Rusiyanın iştirakı və vasitəçiliyi ilə həlli Azərbaycanın maraqlarına cavab vermir. Çünki bu halda Rusiya özünü bölgənin əsas sahibi kimi aparır:** "Rusiya prezidenti Azərbaycanın başı üzərindən fransalı həmkarıyla Qarabağa maliyyə və humanitar yardım barədə telefonla danışır, müzakirə aparır. Halbuki, bu telefon danışığının ardınca diplomatik etika Rusiya prezidentinin Azərbaycan prezidentinə zəngini və Parislə Qarabağla bağlı aparılan danışıqların təfərrütlarının azərbaycanlı həmkarının diqqətinə çatdırılmasını diktə edirdi. Buna baxmayaraq, Azərbaycan minalanmış ərazilərin xəritələrini əldə etməkdə davam edir və bu, gələcək planlarımızın, köçürülmənin və inşaat çalışmalarının sürətlənməsinə şərait yaradacaq. Qarabağda yaşayan ermənilərin sayı 30-35 min arasındadır, bunu özləri də etiraf edirlər. Qarabağa köüçürləcək yüz minlərlə soydaşımız erməni separatizminə növbəti zərbə olacaq. Minalanmış ərazilərlə bağlı xəritələrin dəqiqliyinə gəldikdə, Azərbaycan Müdafiə Nazirliyinin xəritələrlə bağlı açıqlaması yoxdur. Əgər birinci dəfə Ağdam ətrafında basdırılan minaların xəritəsi saxta olsaydı, Füzuli və Zəngilan rayonları ətrafında basdırılan xəritələrlə bağlı razılaşma olmayacaqdı. Ancaq mümkündür ki, bu xəritələrin xaricində də basdırılan minalar var, qarşı tərəf bunu bizdən gizlətməyə çalışır. Demək, erməni diversantların bir hissəsini hələ təhvil verməməliyik".

**İsmayıl**



## Şuşada Üzeyir Hacıbəylinin heykəli ucaldılacaq

**Heydər Əliyev Fondu tərəfindən Şuşada görkəmli bəstəkar Üzeyir Hacibəylinin heykəli ucaldılacaq.**

Heydər Əliyev Fondundan APA-ya verilən məlumata görə, abidə Şuşa şəhərinin işğalı zamanı ermənilər tərəfindən dağıdılan heykəlin yerində qoyulacaq.

*Qeyd edək ki, hazırda Bakıda emalatxanada heykəlin hazırlanması prosesi gedir.*

*Heydər Əliyev Fondu heykəlin hazırlanması prosesindən video paylaşıb.*

## Ərdoğan: "2025-ci ilə qədər su qıtlığı səbəbindən 700 milyon insan köç edəcək"

**"Suyun qapalı sistemlə yayılması istiqamətində fəaliyyət göstərəcəyik".**

"Report" xəbər verir ki, bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan prezident iqamətgahında "Suyun gücü millətə qovuşur" adlı toplantıdakı çıxışında deyib.

"Suyumuzu qorumaqla vətənimizi qoruyuruq" ifadələri arasında heç bir fərq yoxdur. 2040, 2050 və 2070-ci illərə qədər suyun verilməsi planını tutacağıq. İçməli su probleminin yaranmasının ən böyük səbəbi itkidir. Bələdiyyələrimizin bu itkini 38 faizdən 25 faizə endirməsi istiqamətində fəaliyyəti davam edir", - Türkiyə prezdenti vurğulayıb.

*Onun sözlərinə görə, 2025-ci ilə qədər su qıtlığı səbəbindən 700 milyon insan köç edəcək.*

# Rusiya sülhməramlıları 5 ildən sonra ərazilərimizi tərk etməyə məhkumdur

*Şuşa Bəyannaməsi və Türkiyənin istənilən vaxt bölgəyə hərbi qüvvə yerləşdirmək imkanları Kremli daha da çıxılmaz duruma salıb*

"Rusiya sülhməramlılarının bölgədə uzun müddətə qalması istəyi həm Rusiyanın, həm də separatçı rejimin arzusudur". Bu barədə "Şərq"ə açıqlamasında İrəvan Azadlıq Təşkilatının sədri Təbriz Musayev deyib. Birlik rəhbəri vurğulayıb ki, Rusiya, xüsusilə də ABŞ tərəfindən dəstəklənən Paşinyanın hakimiyyətə gəlişindən sonra Cənubi Qafqazda mövcudluğunun təhlükə altında olduğunu hiss edir:

"Rusiya yaxşı bilir ki, Paşinyanı hakimiyyətə gətirən Qərb dairələri gec-tez ondan Rusiya hərbi bazasının Ermənistandan çıxarılması ilə bağlı addımlar atmağı tələb edəcəklər. Bu isə Rusiya üçün Cənubi Qafqazın tamamilə əldən çıxması anlamına gəlir. Çünki Azərbaycan və Gürcüstanda Rusiya hərbi bazaları mövcud deyil və nə vaxtsa olacağı ilə bağlı da heç bir perspektiv yoxdur. Bunu yaxşı başa düşən Rusiya hər vəchlə özünə daha yaxın, sözə baxan qüvvələrin hakimiyyətə gəlişinə çalışırdı. Son seçkilərdə Koçaryanın müdafiə edilməsi də buna xidmət edirdi. Lakin həmin gözləntilər özünü doğrultmadı. Əksinə, indi erməni cəmiyyətində və hakimiyyətində Rusiyaya qarşı olan münasibət özünü mənfiyə doğru daha qabarıq şəkildə büruzə verməkdədir".

**Analitik bildirib ki, Şuşa Bəyannaməsi və Türkiyənin istənilən vaxt bölgəyə hərbi qüvvə yerləşdirmək imkanları, bununla da faktiki olaraq həm də NATO-nun regiona yerləşməsi Rusiyanı daha da çıxılmaz duruma salıb:** "Rusiya regionda öz mövcudluğunu qoruyub saxlamağın tək yolunu guya ki, "sülhməramlı" missiya həyata keçirdiyi ərazidə uzun müddət qalmaqda görür. Bunun üçün də ayrı-ayrı ictimaiyyət nümayəndələrinn dili ilə həm Azərbaycana, həm də Ermənistana mesajlar verilir ki, "bizim regionu tərk etmək fikrimiz yoxdur". Bunu Rusiya TV-nin reportajlarından da görmək olur. Elə bir neçə gün əvvəl Rusiya telekanalı Laçın dəhlizindən hazırladığı reportajda Xankəndidə olan ermənilərdən müsahibə alaraq onların Rusiya pasportu daşımaq istədiyini təbliğ edirdi. Separatçı rejim təmsilçilərinin də Rusiyanı qarant olaraq görməsi və eyni mövqe sərgiləməsi bir tərəfdən həmin ərazilərə köçürülmüş, lakin sayları hər keçən gün azalan erməniləri arxayın salmağa, digər tərəfdən isə Rusiyanın vassalı olaraq mövcudluqlarını davam etməyə hesablanıb".

**T.Musayev vurğulayıb ki, Rusiya isə şirnikləşdirilərək və aldadılaraq Xankəndiyə və ətraf ərazilərə köçürülən ermənilərin orda qalmaq istəmədiyini və bölgəni tərk etdiyini gördüyü üçün Rusiyanın qarant olması ilə bağlı fikirləri mütəmadi olaraq dövriyyəyə buraxır:** "Çünki ermənilərin həmin ərazidən köç etməsi ona gətirib çıxaracaq ki, Rusiyanın hər hansı bir missiya həyata keçirməsinə ehtiyac qalmayacaq. Amma kimin nə deməsindən asılı olmayaraq, Rusiya və ya separatçı rejimin arzularından asılı olmayaraq ortada üçtərəfli bəyanat var və həmin bəyanatın da şərtlərinə müvafiq olaraq Rusiya "sülhməramlıları"nın bölgədə qalma müddəti 5 ildir. 4 il yarımdan sonra tərəflərdən hər hansı birinin tələbi ilə onlar ərazilərimizi tərk etməyə məhkumdurlar və bu, belə də olacaq".



**İsmayıl Qocayev**

# Azərbaycanla barışıq Türkiyə ilə barışıqdır



## Ermənistan anlayır ki, bu yolun alternativi yoxdur

KTMT Baş katibi Stanislav Zasın bəyanatları qəribədir. Bunu "Azadlıq radiosu"na müsahibəsində Ermənistanın hakim Mülki Müqavilə Partiyasının üzvü Ruben Rubinyan deyib. Rubinyan Ermənistanın suverenliyinin təhdid altında olduğunu əsas gətirərək, KTMT-yə müraciət etdiklərini və Zəngəzurla bağlı situasiyanın KTMT nizamnaməsinin 2-ci maddəsinə uyğun gəldiyini iddia edib. Qeyd edək ki, bundan öncə KTMT Baş katibi Stanislav Zas Zəngəzurla bağlı məsələnin KTMT nizamnaməsinə uyğun olmadığını və məsələnin sərhəd insidenti olduğunu deyib.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən politoloq Natiq Miri deyib ki, burada KTMT-nin nüvəsi olan Rusiya dövlətinin maraqları kontekstində bir yanaşma var. O qeyd edib ki, bu da bilavasitə Rusiyanın Ermənistan üzərində tam nəzarətini təmin etməkdən ibarətdir:** "Çünki Rusiya bildiyiniz kimi, istədiyinə nail ola bilmədi. Dəstəklədiyi namizəd Robert Koçaryan həqiqətən də Ermənistan cəmiyyətində iflasa uğradı. Bu da dolayısıyla təkcə Qarabağ klanının deyil, həm də Rusiya siyasətinin Ermənistanda məğlubiyyəti anlamına gəlir. Ona görə də bu cür açıqlamalar sadəcə ədaləti bərpa etmək, yaxud da ki, məsələyə ədalətli və hüquqi yanaşmadan irəli gəlmir. Digər tərəfdən isə əlbəttə ki, bu məsələ sözün əsl mənasında hüquqi cəhətdən doğru bir açıqlamadır. Yəni dolayısıyla Rusiya öz maraqlarını ifadə etməklə yanaşı, bir də hüquqi cəhətdən prosesləri doğru yöndə dəstəkləyir. Bu günləri Azərbaycan ilə Ermənistan arasında 44 günlük Vətən müharibəsindən sonra sərhədlərin müəyyənləşməsi prosesi gedir. Bu da ağrılı bir prosesdir. Ona görə də bu məsələyə yanaşma tərzində açığı kimisə ittiham etmək və yaxud da hansısa hərbi bloku qarşı tərəfin üzünə qaldırmaqla deyil. Çünki sərhədlərin müəyyənləşməsi üçün konkret beynəlxalq hüquq çərçivəsində və coğrafi mövcud olan xəritələr əsasında iki dövlət arasında müəyyən razılaşma olmalıdır. Bu da əlbəttə ki, diplomatik danışıqlardan keçir. Çox maraqlıdır ki, hüquqi və diplomatik siyasi yöndə danışıqlarda Ermənistanın əli güclü olmadığı üçün bu cür məsələlərlə prosesi şantaj etmək istəyirlər. Əgər bununla bağlı ermənilərin əlində faktlar olsaydı, o zaman onlar konkret faktlar ortaya qoyar və digər beynəlxalq təşkilatlarda da bu məsələdə özünə dəstək qazana bilərdi. Ancaq ortada real fakt bundan ibarətdir ki, sərhədlərin müəyyənləşməsi prosesi bu gün, ya sabah və yaxud on illər ərzində müəyyənləşməlidir. Bu da ikitərəfli anlaşma çərçivəsində mümkündür. Əks təqdirdə regionda sülh olmayacaq".

> "Çünki alternativ olmuş olsaydı, bu 30 il müddətində İran və Qərb dövlətlərinin dəstəyi ilə Ermənistan inkişaf edərdi"

**N.Miri əlavə edib ki, sülhün olması bu gün Azərbaycanın deyil, Ermənistanın əleyhinə işləyir**: "Çünki sülh olmasa və sərhədlərin müəyyənləşməsi prosesi başa çatmasa Ermənistan blokadadan çıxarılmayacaq. Bu da o deməkdir ki, hələ də Ermənistanda iqtisadi böhran davam edəcək. Ona görə də bilirsiniz ki, bu cür açıqlamalar boğazdan yuxarı açıqlamalardır. Və parlament seçkilərində qalib gələn Mülki Mübadilə Partiyası nə qədər proseslərə adekvat yanaşsa və prosesləri doğru dəyərləndirsə, düşünürəm ki, bir o qədər Ermənistan daha çox qazanacaq. Həmçinin ortada mühüm fakt var. Baxırsınız ki, Ermənistan konkret addım atan kimi Azərbaycan da adekvat atdı. Daha 15 erməni diversantını Ermənistana qaytardı. Bu, əlbəttə ki, yeni Ermənistan hökumətinə olan ictimai basqını getdikcə azaldır və daha rahat nəfəs almağa imkan yaradır. Ermənistan anlamalıdır ki, əgər o, Azərbaycanla ikitərəfli danışıqlara gedərsə, məsələlərə etibarlı, yalançı hay-küylərlə deyil, hüquqi cəhətdən də daha etibarlı yanaşma tərzi ortaya qoyarsa, o zaman qonşu Azərbaycanla daha rahat dil tapa bilər. Bu da Ermənistanın gələcək inkişafının önünü aça bilər. Çünki inkişaf Azərbaycandan asılıdır. Azərbaycanla barışıq Türkiyə ilə barışıqdır. Bunun alternativi mümkün deyil. Çünki alternativ olmuş olsaydı, bu 30 il müddətində İran və Qərb dövlətlərinin dəstəyi ilə Ermənistan inkişaf edərdi. Gördüyünüz kimi, Ermənistan çox bərbad vəziyyətdədir. Həm iqtisadi, həm demokratik, həm də ordunun dağılması nöqteyi-nəzərindən. Demək olar ki, Ermənistan tamamilə iflasa uğramış bir dövlətdir".

**Aynurə Pənahqızı**



## "Qurtuluş-93" MTK rəhbərinin həyat yoldaşı qəza törədib

### Gülnar Hüseynova sükana nəzarəti itirib, üç avtomobil toqquşub

**Abşeronda üç avtomobil toqquşub, 2 nəfər xəsarət alıb.**





APA xəbər verir ki, hadisə Duz gölünün yaxınlığında baş verib.

Belə ki, 90-HN-009 dövlət nişanlı "Mercedes" markalı avtomobili idarə edən Hüseynova Gülnar Əsəd qızı sükana nəzarəti itirib. Avtomobil "Nissan"a, daha sonra "Mercedes" və "VAZ 2106" markalı nəqliyyat vasitələrinə çırpılıb. Qəza zamanı üç nəfər xəsarət alıb.

*Qeyd edək ki, "Mercedes Galandewagen"nin sürücüsü Gülnar Hüseynova "Qurtuluş 93" MTK-nın rəhbəri Məhərrəm Novruzovun həyat yoldaşıdır.*

## Daha 62 nəfər koronavirusa yoluxub

### 33 nəfər sağalıb, son sutkada ölən olmayıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 62 yeni yoluxma faktı qeydə alınıb, 33 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, son sutkada COVID-19-dan ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 336479 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 330466 nəfər müalicə olunaraq sağalıb, 4978 nəfər vəfat edib, aktiv xəstə sayı 1035 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 5951, ötən müddət ərzində isə ümumilikdə 3793040 test aparılıb.

# Bakı haqlıdır

## "...İrəvan KTMT-nin dəstəyindən məhrum olacaq və..."

KTMT-nin baş katibi Stanislav Zas deyib ki, Ermənistanın cənubu Zəngəzurda Azərbaycanla sərhəddə yaranmış vəziyyət Kollektiv Təhlükəsizlik Müqaviləsinin (KTMT) Nizamnaməsinin təsir dairəsinə düşmür. Onun sözlərinə görə, Zəngəzurda Ermənistanla Azərbaycan arasında baş verən gərginlik sərhədin müəyyənləşdirilməsi məsələsidir və ona görə də bu məsələyə müdaxilə etmək hüququna malik deyil.

"KTMT ancaq işğal və hücumlar zamanı məsələyə müdaxilə edir. Biz isə burada ancaq sərhəd məsələsi üstündə yaranan gərginliyi müşahidə edirik. Şükürlər olsun Allaha ki, orada nə atəşkəs pozulub, nə də ki, ölüm hadisəsi baş verib. Bu, sərhəd məsələsidir və həll edilməlidir. Biz də məsələnin sülh yolu ilə həllinin tərəfdarıyıq" - KTMT Baş katibi söyləyib.

KTMT Baş katibi onu da əlavə edib ki, prinsip etibarı ilə orada gərginliyin artması müşahidə edilmir: "Gərginliyin artmaması artıq özü yaxşı nəticədir. Qarşıda sərhədlə bağlı hələ çox mübahisəli məsələlər var ki, bunları da danışıqlar yolu ilə həll etmək lazımdır".



**BDU-nun professoru, politoloq Əlimusa İbrahimov sözügedən qurumun bəyanatını "Şərq"ə şərh edib**: "KTMT-də yaxşı bilirlər ki, Ermənistan bəzi üzv dövlətləri konfliktə cəlb etmək istəyir. Azərbaycan sovet dövründən qalan xəritələr əsasında öz sərhəd məsələsini həll edir. Bu hadisələr Ermənistandakı seçkilərdən əvvəl başlamışdı. Və KTMT təxminən bir aydan sonra reaksiya bildirdi. Çünki araşdırır, arqumentləri qiymətləndirirdi. Nəhayət, Bakının mövqeyinin haqlı olduğunu anladı".

**Politoloqun fikrincə, bu həm də İrəvana mesajdır:** "Ermənistan Baş naziri Nikol Paşinyanın Qərbə meyil edəcəyi gözlənilir. Ona çatdırılır ki, belə bir hal baş versə, İrəvan KTMT-nin dəstəyindən məhrum olacaq və sərhədlər Azərbaycana sərf edən formada müəyyənləşəcək. Hətta Rusiya da indiki halda Ermənistanı dəstəkləmir. Əks halda belə bəyanat verilməzdi. Bundan sonra Paşinyanın hansı yolu seçəcəyi Qərbin dəstəyinin nə qədər olacağından asılıdır. Əvvəlki kimi səthi olarsa, Ermənistan yenə də Moskvadan asılı vəziyyətdə qalacaq. Bütün hallarda, İrəvan hələ ki, Kremlə qarşı "buynuzunu çıxarmayacaq". Paşinyanın prioriteti daxili siyasi vəziyyəti stabilləşdirmək, revanşistləri neytrallaşdırmaqdır. Çünki onlar iqtidarın gələcək siyasətinə mane ola bilərlər".

**Kənan**

# “Rusiyanın çirkli oyunlarından şübhələnirəm”

## Sərdar Cəlaloğlu: “Moskva qarşılıqsız heç bir addım atmır və bu məqam məni çox narahat edir”



Məlum olduğu kimi iyulun 3-də Ermənistan 15 erməni silahlısının azad edilməsi müqabilində Füzuli və Zəngilanda basdırılan 92 mindən çox minanın xəritələrini Azərbaycana təqdim edib. Budəfəki vasitəçilik missiyasını Rusiya həyata keçirib. Bununla bağlı rəsmi Bakı rus sülhməramlılarının komandanı Rustəm Muradova təşəkkürünü ifadə edib.

Xatırladaq ki, bundan öncə iyunun 12-də Ermənistandan Ağdam rayonu üzrə 97 min tank və piyada əleyhinə minanı özündə əks etdirən xəritələr alınmışdı. Həmin proses isə ABŞ və Avropa təşkilatlarının, o cümlədən Gürcüstanın müdaxiləsi ilə baş tutmuşdu. Şübhə yox ki, mina xəritələrinin əldə edilməsi on minlərlə vətəndaşımızın, o cümlədən minatəmizləyənlərin həyatını təhlükədən xilas edəcək. Eyni zamanda işğaldan azad edilmiş ərazilərimizdə tikinti və yenidənqurma layihələrini və məcburi köçkünlərin qayıdışını sürətləndirəcək. Avropa İttifaqının Cənubi Qafqaz regionu və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaar xəritə və ”əsir” mübadiləsini alqışlayıb. ATƏT-in fəaliyyətdə olan sədri Ann Linde də növbəti razılaşmanı təqdirəlayiq hesab edib: ”Rusiyanın vasitəçiliyini təqdir edirəm. Ümid edirəm ki, daha çox etimad yaratma ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi altında dayanıqlı nizamlanma üçün yol aça bilər”. Ekspertlərin fikrincə, Moskva amerikalıların bundan əvvəlki gedişinə qarşı vasitəçiliyi öz üzərinə götürmək qərarına gəlib. Keçən dəfə Ağdamın mina xəritəsini amerikalılar gürcülərin əli ilə aldılar. Topu ruslara ataraq iddia etdilər ki, xəritə daha əvvəl ruslara verilibmiş. Moskva isə göstərdi ki, əsas vasitəçi odur və ”lazım olanda” hətta 2 rayonun minalanmış xəritəsini belə əldə edə bilər. Əlbəttə, mina xəritəsinin nə qədər dəqiq olduğunu demək çətindir. Ancaq müəyyən hissəsi saxta olsa belə, Azərbaycan tərəfi xəritələri almaqda maraqlıdır. Çünki burada söhbət vətəndaşlarımızın həyatından və köçkünlərin Qarabağa qayıdışından gedir. Quruculuq və qayıdışın tezliklə başlaması üçün xəritələrin ermənilərdən alınması şərtdir.

**“200 minə yaxın minaların, özü də müharibə zonası olmayan, dinc əhalinin yaşadığı yerlərə basdırılması ilə bağlı heç bir hüquqi iş görməmişik”**

Başqa tərəfdən, xəritə və erməni diversantların mübadiləsi ”əsir” söhbətini də bağlayacaq. Bu həm də dünya ictimaiyyətinin və Qərb strukturlarının neytrallaşdırılması baxımından önəmlidir.

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər ”Şərq”ə açıqlamasında vurğulayıb ki, bir müddət əvvəl Nikol Paşinyan xəritələrin hamısını Rusiyaya verdiklərini bəyan etmişdi.** Partiya rəhbərinin sözlərinə görə, əgər bugünədək minalanmış ərazilərin xəritələri Azərbaycan tərəfinə verilməyibsə, burada əsas günahkar Moskvadır: ”Rusiya gördü ki, onun iştirakı olmadan belə digər tərəflərin, xüsusən Qərbin müdaxiləsi, Gürcüstanın vasitəçiliyi ilə xəritələrin alınması mümkündür. Kreml dərk etdi ki, Rusiya bu məsələdən kənarda qalsa da, xəritə ilə erməni hərbçilərin mübadiləsi prosesi gedəcək. Bunun baş verməsi isə Rusiyanın Cənubi Qafqazda, xüsusən Azərbaycandakı nüfuzuna ciddi zərbə vuracaq. Həm də rus ”sülhməramlılarının” Qarabağda olduğu faktını nəzərə alsaq, xəritələrin Ermənistandan Rusiyanın iştirakı olmadan alınması Kreml üçün arzuolunmazdır. Ona görə də Moskva xəritə məsələsini nəzarətinə almağa başladı. Onu da unutmayaq ki, dövlət başçısı İlham Əliyevin ABŞ Prezidenti Co Baydenə yazdığı təbrik məktubunda Ermənistanla sülh danışıqlarında vasitəçilik etməsi üçün Vaşinqtona müraciət etmişdi. Çox güman ki, bu məqam da Kremlə ciddi siqnal olub. Rusiya görür ki, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması onun iradəsindən kənarda baş verir. Moskva regionda yaşananların onun inhisarından çıxa biləcəyinin fərqindədir. Ən azından özünü daha konstruktiv aparmağa çalışır. Müharibə bizim ərazimizdə gedib, dağıntıya məruz qalan tərəf bizik. Xəritələr nə qədər tez əldə olunsa, itkilərimiz az olar və quruculuq prosesi daha tez başlayar”.

**Azərbaycan Demokrat Partiyasının rəhbəri Sərdar Cəlaloğlu isə ”Şərq”ə vurğulayıb ki, harada Rusiyanın barmağı varsa, o işdən şübhə duymaq lazımdır.** Partiya sədri hesab edir ki, Kremlin iştirakı ilə baş tutan prosesdə mütləq Azərbaycan dövləti və xalqı əleyhinə nələrsə var: ”Rusiyanın türk xalqlarına qarşı düşmənçiliyi davam etməkdədir. Ötən gün Putinin sözçüsü sayılan Jirinovskinin Azərbaycan və Türkiyə əleyhinə söylədiyi fikirlər bunu sübuta yetirir. Moskvadan xeyirli iş gözləmək əbəsdir, sadəlövhlükdür. Rusiyanın çirkli oyunlarından çox şübhələnirəm. Moskva qarşılıqsız heç bir addım atmır və bu məqam məni çox narahat edir. Digər tərəfdən xəritə məsələsindən daha çox ermənilərin beynəlxalq hüququ pozaraq ərazilərimizə bu qədər sayda mina basdırmaları ilə bağlı məhkəmələrə müraciət olunması daha ciddi məqamdır. Beynəlxalq hüquqa görə insanlar əleyhinə minalardan istifadə qadağan edilib. Amma 200 minə yaxın minaların, özü də müharibə zonası olmayan, dinc əhalinin yaşadığı yerlərə basdırılması ilə bağlı heç bir hüquqi iş görməmişik. Halbuki, ortada kifayət qədər dəlil-sübutlar var, xəritələr də ən yaxşı sübutdur”.

**İsmayıl Qocayev**



# Zəngəzur dəhlizinin açılması qaçılmazdır

## “Ermənilərin də narahatlığı təsdiq edir ki, artıq ”ox yaydan çıxıb”

**Çinin Azərbaycandakı səfiri Quo Minin “Zəngəzur dəhlizi ”Bir kəmər, bir yol” layihəsinə töhfə verəcək” sözləri Ermənistanda əməli-başlı ajiotaj yaradıb.**

Erməni mediası dərhal Çinin bu ölkədəki səfiri Fan Yuna mikrofon tuşlayıb ki, Azərbaycandakı səfir bu sözü deyibmi? Yun isə bildirib ki, səfir Min birbaşa ”Zəngəzur dəhlizi”ndən danışmayıb. Əslində Fan Yunun belə deməsi təəccüblü deyil, çünki onun işi səfir işlədiyi Ermənistanda erməniləri qıcıqlandırmamaqdır.

**Siyasi şərhçi Asif Nərimanlı “Şərq”ə açıqlamasında bəyan edib ki, erməniləri narahat edən məsələ dəhlizin olması yox, bunun məhz ”Zəngəzur dəhlizi” adlandırılmasıdır.** Onun sözlərinə görə, hərçənd, ermənilərlə yanaşı, rusların da narahatlığı var: ”Əks təqdirdə ”Sputnik Armenia” saytı səfir Fan Yunun sözlərinə istinadən bu məsələyə geniş məqalə həsr etməzdi. Bu media resursu Ermənistanın maraqlarının ruporu olsa da, heç də Paşinyan hakimiyyətinə yaxın deyil. Görünür, ”Zəngəzur dəhlizi” ilə bağlı Bakı və Ankaraya qarşı hücum xarakterli məqalənin sifarişi də Moskvadan gəlib”.

**Analitikin qənaətincə, Bakı və Ankara nəqliyyat kommunikasiyasının Zəngəzur dəhlizi olaraq qəbul edilməsinə nail olur**: ”Naxçıvanı Azərbaycanla birləşdirən kommunikasiyanın Zəngəzur dəhlizi olaraq qeyd olunduğu ilk rəsmi sənəd Şuşa Bəyannaməsidir. Prezident İlham Əliyev də bildirmişdi ki, artıq beynəlxalq müstəvidə bu dəhlizin adı məhz Zəngəzur dəhlizi kimi təsbit edilib. Quo Minin ”Zəngəzur dəhlizi” deməsi də bunun təsdiqidir. Kommunikasiyanın ”Zəngəzur dəhlizi” adlandırılması Zəngəzurun Azərbaycanın tarixi torpağı olduğu faktının beynəlxalq siyasətin leksikonuna daxil edilməsidir. Ermənilərin də narahatlığı təsdiq edir ki, artıq ”ox yaydan çıxıb”.

**İsmayıl**

# Tarif Şurası Milli Məclisə tabe olmamalıdır

## Şuranın formalaşmasında QHT üzvləri, deputatlar və hökumət nümayəndələri iştirak etməlidir

Millət vəkili Razi Nurullayev Tarif Şurasının ləğv edilməsini, səlahiyyətlərinin Milli Məclisə verilməsini təklif edib. Deputat qeyd edib ki, Tarif Şurasının qəbul etdiyi qərarlar ciddi sosial narazılıq yaradır, əsaslandırmalar isə tutarlı deyil. Onun sözlərinə görə, dövlət müəssisələrinə külli miqdarda büdcə vəsaiti ayrılır, ancaq onlar səmərəli işləmirlər:

”Dövlət onların götürdüyü kreditləri hələ 20-30 il bundan sonra da ödəyəcək. Yəni bizdən sonra gələn nəsil də onların kreditlərini ödəyəcək. Səmərə və effektivlik varmı? Bahalaşma ona görədir ki, məhz ayrılan dotasiyalara görə əmək haqlarını və pensiyaları qaldırmaq olmur. Xalq gözünü neft şirkətinə dikib, o belə dövlət büdcəsindən dotasiya alır. 10 milyonluq xalqın hər bir ailəsinin və fərdinin gündəlik yaşayışına təsir edən qərarları 5-6 nəfər yox, xalqı təmsil edən Milli Məclis üzvləri qəbul etməlidir. İnanıram ki, bu qərarın mənfi təsirini azaltmaq üçün hökumət tərəfindən əlavə sosial qərarlar və paketlər hazırlanacaq. Milli Məclis də bu yöndə lazımi müzakirələri keçirməlidir”. Xatırladaq ki, deputat bu təklifi Tarif Şurasının qazın qiymətini artırma qərarından sonra səsləndirib.

**İqtisadçı-alim, keçmiş millət vəkili Nazim Baydəmirli ”Şərq”ə açıqlamasında vurğulayıb ki, ümumiyyətlə, dövlət tərəfindən tənzimlənən qiymətlər vətəndaşları həm maliyyə, həm də keyfiyyət baxımından qane etmir.** İqtisadçının sözlərinə görə, dövlət orqanları Tarif Şurasında rəhbərin müavinləri səviyyəsində təmsil olunur: ”Problem ondadır ki, ölkədə qərarların qəbul olunma mexanizmi kollegial deyil. SOCAR, ”Azərsu”, ”Azəriqaz”, ”Azərişıq” və s. qurumların verdikləri xidmətin maya dəyəri hələ də müəmmalı olaraq qalır. Fikrimcə, bu xidmətlərin maya dəyəri kifayət qədər şişirdilir. Ölkə başçısı da bu məqamı qeyd etmişdi və bildirmişdi ki, investisiya layihələri



dövlət büdcəsi hesabına aparılırsa, deməli, bu qurumlar öhdəliklərini yerinə yetirə bilmirlər. Üstəlik xarici kreditlərlə borclanırlar və sonra həmin borclar dövlət büdcəsindən ödənilir. Deputat Razi Nurullayevin təklifini müsbət qarşılamaq olar. Əslində, Milli Məclisin indiki səlahiyyətləri imkan verir ki, hökumət nümayəndələrini, Tarif Şurasının üzvlərini Milli Məclisə çağırsınlar və onlardan qiymət artımının əsaslandırılmasını tələb etsinlər. Amma bunun üçün Milli Məclis həqiqətən xalqı təmsil etməlidir və deputatların özlərinin müstəqilliyi təmin olunmalıdır. İndiki məqamda hansısa addım sadəcə monopolistlərin maraqlarına xidmət edəcək”.

**Ekspertin qənaətincə, kommunal xidmətlər göstərən qurumlarda qohumbazlıq, yerlibazlıq amilləri önə çıxır:** ”Mənimsəmələr kifayət qədər böyükdür. Qurumlar da məcbur qalırlar ki, izafi xərclərini vətəndaşın boynuna yükləsinlər. Bunu ən asan yol bilirlər. Fikrimcə, Tarif Şurasının formalaşmasında QHT üzvləri, deputatlar və hökumət nümayəndələri iştirak etməlidir. Yəni Şura Milli Məclisə tabe edilməməlidir, sadəcə, formalaşmasında zəruri qurumların təmsilçiləri mütləq yer almalıdır. Tarif Şurasının səlahiyyətləri konkret qanunla müəyyən edilməlidir”.

**İsmayıl Qocayev**

# Ölkə çöküb, gələcəyə inam yoxdur

### Rusiya və Ermənistan bölgənin erməni əhalisinin köçünə mane olmağa çalışır



"Open Armenia" təşkilatı Ermənistan vətəndaşları arasında sorğu keçirib. Anonim sorğuda iştirak edən ermənilərin 64 faizi mühacirət etmək istədiyini dilə gətirib. Rusiyaya getmək istəyənlər 32 faiz, ABŞ-a getmək istəyənlər isə 25 faiz olub. Sonrakı yerlərdə isə müvafiq olaraq Kanadaya, Qazaxıstana, Ukraynaya və Fransaya mühacirət etmək istəyənlər gəlir.

Sorğuda iştirak edənlərin 86 faizi maddi-sosial durumlarının, 91 faizi isə psixoloji vəziyyətlərinin çox pis olduğunu deyiblər. ”Qarabağın statusu necə olacaq” sualına rəyi soruşulanların 64 faizi ”bilmirəm”, 22 faizi ”hər şey artıq həll olunub” cavabını verib. Respondentlərin 43 faizi isə Rusiyanı ”qarabağlı ermənilərin dostu və müttəfiqi” hesab etmədiyini dilə gətirib. Sorğu Qarabağda rusiyalı sülhməramlıların nəzarətində olan ərazilərdə keçirilib.

**Bakı Politoloqlar Klubunun sədri, siyasi elmlər namizədi Zaur Məmmədov deyib ki, ”Open Armenia” təşkilatının sorğusundan aydın olur ki, Ermənistanın iqtidarlı-müxalifətli siyasətçilərinin bir qismi hələ də reallıqdan uzaqdadır.** Analitikin sözlərinə görə, əks təqdirdə, bir tərəfdə bu gün özünü hansısa qondarma rejimin nümayəndəsi hesab edənlər, Ermənistandakı ayrı-ayrı siyasətbazlar Qarabağın ”status” ilə bağlı reallıqdan uzaq gülünc fikirlər səsləndirməzdi: ”Araik Arutyunyan, Robert Koçaryan, Armen Totoyan və digərləri toplumun fikirlərinə məsuliyyətlə yanaşsaydılar, həqiqəti başa düşərdilər. Rus sülhməramlılarının və Ermənistanın Azərbaycanın nəzarəti altında olmayan bölgələrdə ermənilərin sayını dəfələrlə şişirtməyinə baxmayaraq, bölgədə təxminən 16-20 min civarında erməninin yaşadığı bildirilir. ”Open Armenia” təşkilatının və bir çox anonim tədqiqatların nəticələri onu deməyə əsas verir ki, Xankəndidə və ətraf rayonlarda yaşayan ermənilərin yarısından çoxu pandemiyanın bitməsini gözləyərək evlərini satmağı və xaricə köçməyi planlaşdırır. Sorğudan da göründüyü kimi, maddi durumlarının çox ağır olması və girovlarında olduqları separatçı siyasətbazların davranışları, yerli ermənilərin ”böyük köç”ünün əsas səbəbləridir”.

*Z.Məmmədov qeyd edib ki, indi həm Rusiya, həm də Ermənistan üçün vacib vəzifələrdən biri bölgənin erməni əhalisinin köç etməsinə yol verməməkdir:* ”İstisna deyil ki, gələcəkdə bəzi dairələr sülhməramlıların nəzarətindəki ermənilərdən öz təxribatlarında istifadə edə bilər. Bir müddət əvvəl Rusiyanın TVC federal televiziya kanalının efirində Azərbaycanın Qarabağ bölgəsinin Rusiya sülhməramlılarının müvəqqəti nəzarətində olan hissəsindən ”Zaqafqazski uzel” adlı reportaj efirə verilib. Jurnalist Vera Kuzminanın müəllifi olduğu reportajda ”Dağlıq Qarabağ” ayrıca ölkə kimi təqdim olunub. Azərbaycana qarşı təxribatçı fikirlərin yer aldığı reportajda Xankəndidəki erməni sakinlərlə müsahibələr də yer alıb. Jurnalist ”Dağlıq Qarabağ”da ermənilərin çoxunun Ermənistan deyil, Rusiya pasportu almağı arzuladığını bildirib. Xankəndinin erməni sakinləri müsahibələrində təhlükəsizlik üçün Rusiya vətəndaşı olmaq istədiklərini vurğulayıblar. Rusiyadakı bəzi dairələrin belə niyyət güdməsi çox təhlükəli proseslərlə nəticələnə bilər. Həmin qruplar bu kimi ”xəyallara” düşərkən 15 iyunda Azərbaycan və Türkiyə arasında imzalanan Şuşa Bəyannaməsini nəzərdən qaçırmamalıdır”.

**İsmayıl**




## Xəritələrin verilməsi diplomatiyamızın uğurudur

### Əhali öz torpaqlarına daha tez qayıdacaq

**“Ağdamdan sonra Füzuli və Zəngilan ərazisində mina xəritələrinin əldə edilməsi Prezident İlham Əliyevin diplomatik məharəti və Azərbaycan diplomatiyasının növbəti uğurudur”.**

**Bu fikirləri Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov ”Şərq”ə açıqlamasında deyib. O qeyd edib ki, xəritələrin əldə edilməsinin Azərbaycan və işğaldan azad olunmuş ərazilərin bərpası üçün əhəmiyyəti böyükdür:** ”Çünki bundan sonra işlər daha sürətli görüləcək və əhali tez bir müddətdə öz torpaqlarına geri qayıdacaq. Xəritələrin əldə edilməsinin insan itkisinin qarşısının alınmasında da əhəmiyyəti danılmazdır. Xəritələrin mülki insanların mina terrorundan əziyyət çəkməsi baxımından da böyük müstəsnalığı var. Füzuli və Zəngilanda 92 min mina xəritələrinin əldə olunması həm də dünyaya erməni faşizminin necə murdar olduğunu bir daha nümayiş etdirir. Ağdamdan sonra Füzuli və Zəngilanın ən çox minalanmış ərazilər olmasını da unutmayaq. Ağdamdan sonra ən böyük infrastruktur layihələrinin Füzulidə həyata keçirilməsi, Füzulinin strateji əhəmiyyət kəsb etməsi, bütün yol-nəqliyyat infrastrukturunun bu ərazidən keçməsi də mina xəritələrinin nə qədər zəruri olduğunu sübut edir”.

**Aynurə**

## Hadrutdakı yanğın təxribat da ola bilər

### “Sübut olunarsa, məsələ beynəlxalq ictimaiyyət qarşısında qaldırılmalıdır”



**Fövqəladə Hallar Nazirliyinə Füzuli rayonunun Qarazalı kəndində (Xocavənd rayonunun Hadrut qəsəbəsi istiqamətində) düşmən tərəfindən minalanmış mürəkkəb relyefli dağlıq ərazidəki açıq sahədə və qismən meşə zolağında yanğın baş verməsi barədə məlumat daxil olub.**

Bildirilib ki, məlumat əsasında dərhal nazirliyin Aviasiya dəstəsinin bir ədəd helikopteri cəlb olunmaqla yanğınla mübarizə tədbirlərinə başlanılıb.

**Azərbaycan Demokrat Partiyası sədrinin müavini, politoloq Həsrət Rüstəmov “Şərq”ə açıqlamasında təxribat ehtimalını dəyərləndirib:** ”Əlbəttə, yanğın hava ilə əlaqədər da ola bilər. Lakin düşmən namərddir. Ermənilərin indiyədək olan əməllərini nəzərə alsaq, bu da bizə təəccüblü görünməməlidir. Ciddi araşdırmaya ehtiyac var. Provokasiya sübut olunarsa, məsələ beynəlxalq ictimaiyyət qarşısında qaldırılmalıdır. Meşələr kiminsə şəxsi sərvəti deyil. Meşələr dünya ekologiyasına töhfə verən bir sistemdir. Deməli, yanğın düşmənin əməlidirsə, o, ekoloji terror törədib. Biz bunu isbatlasaq, ermənilərin əsl üzünü hər kəsə göstərmiş olacağıq”.

**Kənan**

# “Kremlə qarşı faktlar amansızdır”

### *Ona görə Rusiya Bakının mövqeyini qəbul etməyə məcburdur*

Bu günlərdə 15 terrorçu Ermənistana qaytarıldı. Bunun qarşılığında Füzuli və Zəngilanda 92 minlik minalı ərazilərin xəritəsi bizə verildi. Prosesin Rusiyanın vasitəçiliyi ilə baş tutması diqqət çəkir. Doğrudan, Moskva "suyun durulmasında" maraqlıdır? Bu, çoxları kimi bizə də inandırıcı görünmür. Hər halda Kremlin indiyədək hansı məkrli siyasətlər ortaya qoyduğu yaxşı məlumdur. Deməli, mütləq aysberqin görünməyən tərəfi də var.

*Odur ki, ”Şərq” olaraq BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli ilə söhbətləşdik:*

**- Moskvanın proseslərdəki fəallığını necə qiymətləndirirsiniz?**

- Yadınızdadırsa, əvvəllər əsas təşəbbüskar ABŞ idi. O vaxt Ermənistan Baş naziri Nikol Paşinyan minalı ərazilərin xəritəsinin Rusiyaya verildiyini demişdi. Şimal qonşumuz isə bunu təkzib etmişdi. Deməli, niyyəti heç də xoş deyildi. Sadəcə, sonradan proseslərdən kənarda qaldığını, Qərbin regiondakı mövqeyinin tədricən gücləndiyini anladı. Və məhz bu addımı ilə bölgədəki nüfuzunu, təsir gücünü qorumağa çalışır. Moskva açıq-aydın göstərir ki, bölgəyə əlavə ”oyunçunun” gəlməsini müsbət qarşılamır.

**- Xəritələrin dəqiq olduğundan necə əmin ola bilərik?**



### Professor: “Hətta bəzi rus politoloqları Rusiyanın Azərbaycanın diktəsi ilə fəaliyyət göstərdiyini deyirlər”

- Bəli, ictimaiyyətdə bu barədə narahatlıq var. Lakin proseslərin ilkin mərhələsində ABŞ iştirak edibsə, deməli, xəritələr maksimum obyektivdir. Düzdür, say fərqi ola bilər. Ancaq xəritələr adi kağız parçası deyil. Belə proseslərdə mütləq gələcək hadisələr də nəzərə alınır. Nə Rusiya, nə də Ermənistan sabah gözükölgəli qalmaq istəyər.

**- Cəmiyyətdəki narahatlıq necə aradan qalxmalıdır?**

- Bunun üçün müvafiq dövlət qurumları əvvəlki xəritələrin nə qədər dəqiq olması barədə ictimaiyyətə açıqlama verməlidir.

**- Proseslərin hazırkı durumu gələcək üçün nələr vəd edir?**

- Bütün bunlar Azərbaycanın üstünlüyünü göstərir. Hadisələr biz istədiyimiz senari üzrə inkişaf edir. Ermənistanın xəritələri təqdim etməsi düşmənin revanşist iddialardan əl çəkdiyinin, Azərbaycanın Qarabağda möhkəmliyini qəbul etməsinin təzahürüdür.

**- Rusiya belə konstruktiv mövqe tutmuşkən, hadisələri sürətləndirməkdən ötrü başqa nələr edə bilərik?**

- Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasındakı təmaslar Moskvanın Bakının xeyrinə müəyyən addımlar atdığını deməyə əsas verir. Çünki Kremlə qarşı faktlar amansızdır. Odur ki, şimal qonşumuz mövqeyimizi qəbul etməyə məcburdur. Hətta bəzi rus politoloqları Rusiyanın Azərbaycanın diktəsi ilə fəaliyyət göstərdiyini deyirlər. Amma elə məsələlər var ki, Moskva hələ də güzəştə getmək istəmir.

**- Məsələn?**

- Rusiya hələ də Xankəndi və ətraf ərazilərlə bağlı imperialist siyasətindən əl çəkmir. Şimal qonşumuz ambisiyalarından imtina etməlidir. Onsuz da ABŞ-ın regiondakı nüfuzunun artması nəticəsində Rusiya tədricən sıxışdırılacaq.

**Kənan Novruzov**






# İstiqlal mücahidi:

# Nəsib bəy Yusifbəyli anıldı









İyul ayının 3-də Azərbaycan İlahiyyat İnstitutu (AİI) və Azərbaycan "Türk Ocağı"nın təşkilatçılığı ilə Azərbaycanın görkəmli dövlət və ictimai-siyasi xadimi Nəsib bəy Yusifbəylinin anadan olmasının 140 illiyi münasibətilə "İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Türkiyənin Azərbaycandakı Fövqəladə və Səlahiyyətli Səfiri Cahit Bağçı, İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov, millət vəkilləri - Fazil Mustafa və Ceyhun Məmmədov, Türkiyə və Azərbaycandan 20-yə yaxın tarixçi alim, araşdırmaçı-yazarlar və media nümayəndələri iştirak ediblər. Eyni zamanda Türkiyə Türk Ocaqlarının sədri, professor Mehmet Özün və Türk Ocaqları İstanbul Şöbəsinin rəhbəri Dr. Cezmi Bayramın video-çıxışları dinlənilib. Bir sıra konfrans iştirakçıları tədbirə internet üzərindən onlayn qaydada qoşulublar. Mövcud pandemiya şəraiti ilə bağlı olaraq "İstiqlal savaşında Nəsib bəy Yusifbəyli yolu" mövzusunda elmi konfrans xüsusi qaydalar gözlənilməklə, həm ənənəvi, həm də "ZOOM" proqramı vasitəsilə onlayn formatda təşkil olunub.

İlahiyyat İnstitutu Dillər və ictimai fənlər kafedrasının müdiri İlkin Əlimuradovun moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycan Respublikası və Türkiyə Respublikasının Dövlət himnləri səsləndirilib. Daha sonra 44 günlük Vətən müharibəsində şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Moderator vurğulayıb ki, Nəsib bəy Yusifbəyli dünya işığından məhrum olsa da, onun yaratdığı və bizə miras qoyduğu ziyaya bugünkü və gələcək cəmiyyətin böyük ehtiyacı var: "Bu gün bir araya gəlməyimizin səbəbi də Nəsib bəyin ziyasıdır".

**İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru Aqil Şirinov açılış nitqi ilə qonaqları və konfrans iştirakçılarını salamladıqdan sonra, 44 günlük Vətən müharibəsində şəhid olanları yad edib, qazilərə Allahdan şəfa diləyib.** Nəsib bəy Yusifbəylinin həyatını xalqına həsr edən şəxsiyyət olduğunu vurğulayan rektor onun qısa ömür yaşamasına baxmayaraq, böyük xidmətlər göstərdiyini qeyd edib. Yaşadığı və fəaliyyət göstərdiyi dövrdə daim Azərbaycanın mədəniyyəti, inkişafı yolunda dayanmadan fəaliyyət göstərib. A.Şirinov ümumtürk kontekstində düşünən və hər zaman ictimai fəaliyyətində bunu əks etdirən Nəsib bəy Yusifbəylinin Türkiyədəki fəaliyyətini də yüksək qiymətləndirib. Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonrakı dövrdə N.Yusifbəylinin fəaliyyətindən bəhs edən rektor onun hökumətdə vəzifə tutduğu dönəmlərdə xalqın maarifləndirilməsi, savadlanması yolunda xidmətlərinin danılmaz olduğunu vurğulayıb: "Faciəli şəkildə həlak olarkən 39 yaşı belə tamam olmamışdı. 39 illik ömrə Nəsib bəy Yusifbəyli çox şeyləri sığdırmağı bacardı. Gəncədə Gimnaziyanı bitirdikdən sonra Odessaya yollandı və orada hüquq təhsili almaq istədi. Bunun səbəbi o idi ki, həmin vaxt xalqımızın hüququ tapdanırdı. Əhali öz hüquqlarını bilmirdi. Nəsib bəy əzilən xalqların öz hüquqlarını qorumaq üçün hüquq təhsili almışdı. Getdiyi hər yerdə kiçik Azərbaycan yaratmağı bacarmışdı. Həmyerliləri təşkilatı yaratmışdı. Çar Rusiyası hüquq fakültəsini bağladıqdan sonra Nəsib bəy Krıma getməyə məcbur qalmışdı. Bunun da səbəbi Krımda böyük türk mütəfəkkiri İsmayıl bəy Qaspıralının olmasıydı. Qaspıralı "Tərcüman" qəzetini nəşr etdirirdi. Nəsib bəy bu mətbu orqanla əməkdaşlıq etdi və heç vaxt Azərbaycanı unutmadı. Azərbaycan mədəniyyətinin Krımda tanıdılması üçün bir çox işlər gördü. Hətta dramaturq Əbdürrəhim bəy Haqverdiyevin əsərini səhnəyə qoydurdu və özü də "Nəcəf bəy" obrazını canlandırdı. Firudin bəy Köçərlinin və Hüseyn Qayıbzadənin əsərlərini nəşr etdirməyə çalışdı. Nəsib bəy hər zaman ümumtürk konsepsiyasında düşünürdü. Türk dünyasını bir araya gətirməyin yollarını axtarırdı. Sonrakı dönəmdə İstanbula getdi və düşüncəsində yeni mərhələ başlandı. İstanbul ziyalı mühitinin onun üzərində böyük təsiri olmuşdu".

**Azərbaycan "Türk Ocağı"nın başqanı, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı məruzə üçün söz alıb.** Qonaqları salamlayaraq, konfransda iştirak etdiklərinə görə hər kəsə təşəkkürünü bildirib. O, Azərbaycan tarixinin Milli Azadlıq Hərəkatında N.Yusifbəylinin oynadığı rolu xüsusi qeyd edib. N.Yusifbəylinin Xalq Cümhuriyyətinin başlıca simalarından biri olduğunu vurğulayan Akif Aşırlı onun Baş nazir və maarif naziri olduğu dönəmlərdəki fəaliyyətini yüksək qiymətləndirib. Məruzəçi Nəsib bəy Yusifbəyliyə olan mənəvi borcun qismən yerinə yetirilməsi üçün təşkil olunan konfransın fəaliyyətinə uğurlar arzulayıb: "Tariximizdə elə şəxslər var ki, onlar sanki, tarixin ən çətin və şərəfli dövrünü öz həyatlarına sığışdırıb. Nəsib bəy Yusifbəyli bu cür şəxslərdən idi. Nəsib bəyin keçmişinə nəzər yetirdikdə onun soy-kökü, şəcərəsi Arazın ikiyə böldüyü Güney Azərbaycandan başlayır. Daha sonra ulu babaları Gəncəyə köçüblər və çar Rusiyasının işğalçılığına qarşı son damla qanına qədər vuruşmuş Cavad xanın yanındakı vəzir, vəkilləri olublar. Eyni zamanda Gəncənin milli azadlıq hərəkatında olduqca mühüm rol oynayıblar. Bunlardan saatlarla danışmaq olar. Gəncə mühiti Nəsib bəy Yusifbəylinin formalaşmasında, onun milli və siyasi kimliyini müəyyənləşməsində mühüm rol oynayıb".

**A.Aşırlı vurğulayıb ki, Nəsib bəy Yusifbəyli Cümhuriyyət qurucularından ən öndə gedəni, ideya generatorlarından idi:** "Məhəmməd Əmin Rəsulzadə "Yeni Qafqaziya" dərgisində Nəsib bəy Yusifbəylinin xatirəsinə həsr etdiyi





məqalədə bir ifadə işlədir. Yazır ki, "Azərbaycana siyasi məna verən Nəsib bəydir". Nəsib bəy Yusifbəyli 1917-ci ildə Türk Ədəmi Mədəniyyət Partiyasının yaradılmasını Gəncədə Şah Abbas məscidi qarşısında elan etdi. Bu, Azərbaycan Xalq Cümhuriyyəti üçün siyasi proqram idi. Ən əhəmiyyətlisi ondan ibarət idi ki, iki böyük şəxsiyyət - M.Ə.Rəsulzadə və Nəsib bəy Yusifbəyli birləşdilər. Həm coğrafi mənada Azərbaycanı birləşdirdilər, həm də siyasi mənada Azərbaycanı vahid hala gətirdilər. Cümhuriyyətin əsaslarını yaratdılar".

Sonra çıxış üçün söz Türkiyə Respublikasının Azərbaycandakı Fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçıya verilib. Cənab səfir qonaqları salamladıqdan sonra, Türkiyə-Azərbaycan dostluq və qardaşlıq əlaqələrinin inkişafının böyük əhəmiyyətə malik olduğunu, tarixi köklərə söykəndiyini və bu əlaqələrin yalnız elm, təhsil, mədəniyyət deyil, bütün sahələrdə gücləndiriləcək davam edəcəyini qeyd edib. Cahit Bağçı Nəsib bəy Yusifbəylinin, xüsusilə Xalq Cümhuriyyəti dövründə 100 tələbənin xaricdə təhsil alması üçün gördüyü işlərdən, maarif naziri kimi fəaliyyət göstərdiyi dönəmdəki yüksək fəaliyyətindən bəhs edib: "Nəsib bəy həqiqi dövlət adamı, siyasətçi, qəhrəman, milli mücadilə aparan görkəmli bir şəxsiyyət olub. Azərbaycan üçün, xalq üçün çox böyük işlər görüb. Biz də bu şəxsiyyətlərin türk dünyası üçün gördüyü əvəzsiz xidmətləri diaspora vasitəsi ilə bütün dünyaya çatdırmalıyıq. Çünki qarşımızda 38 illik bir ömrə sığdırılan böyük mücadilənin tarixi var. Nəsib bəy təhsil sahəsində də olduqca mühüm işlər görüb. Bolşevik və erməni maarif müfəttişlərini sistemdən uzaqlaşdıraraq, bu vəzifə üçün türkləri seçib. Ən çətin dönəmdə, milli mücadilə zamanı, dövlətləşmə prosesində yüz tələbəni xarici ölkələrə göndərib. Bu addım Nəsib bəyin baxışını, dünyagörüşünü göstərən önəmli faktlardandır".

**Daha sonra Türk Ocaqlarının sədri, professor Mehmet Öz konfransa onlayn formatda qoşularaq, tədbir iştirakçılarını salamlayıb.** Türk Ocaqlarının qurulması, bu dönəmdə xidmətləri olmuş şəxsiyyətlərin fəaliyyətinə xüsusi toxunub. O, Nəsib bəy Yusifbəylinin xidmətlərini yüksək dəyərləndirib, onun Türkiyədəki fəaliyyətini, xüsusilə gənclərin maariflənməsi, savadlanması yolunda göstərdiyi danılmaz xidmətləri vurğulayıb: "Azərbaycanda, İstanbulda və Krımda mühüm xidmətlər göstərmiş önəmli şəxsiyyətlərdən biri də Nəsib bəy Yusifbəyli idi. Nəsib bəyin həyatının, fikirlərinin, mücadiləsinin öyrənilməsi vacibdir. Ona görə də bu konfransı təşkil edənlərə təşəkkürümü bildirirəm. Çünki Nəsib bəyin Türk Dərnəyinin qurulmasında əməyi olub. Rəhbəri olduğum Türk Ocaqları 1912-ci ildə qurularkən bu önəmli prosesdə Əhməd bəy Ağaoğlu, Yusuf Akçura, Əli bəy Hüseynzadə kimi, "dildə, fikirdə, işdə birlik" ideyası ilə türk dünyasının hər tərəfində təsirini gördüyümüz İsmayıl bəy Qaspıralının da mühüm əməyi olmuşdu. Həmin dövrdə özünü türk-islam davasına adamış isimlərdən biri məhz Nəsib bəy Yusifbəyli idi. O, ömrünü Azərbaycana, türk dünyasına sərf etmiş böyük bir şəxsiyyətdir. Bir siyasət, dava adamı idi".

**Millət vəkili, fəlsəfə üzrə fəlsəfə doktoru Fazil Mustafa da tədbirdə çıxış edib.** Azərbaycan istiqlal tarixində xüsusi rolu olan Nəsib bəy Yusifbəyli şəxsiyyətinə həsr olunan konfransı yüksək qiymətləndirib, təşkilatçılara xüsusi təşəkkürünü bildirib. Yusifbəyli şəxsiyyətinin Azərbaycan tarixindəki xidmətlərini yüksək qiymətləndirən millət vəkili, xüsusilə onun faciəvi ölümü ilə bağlı məsələlərin tarixçilər tərəfindən öyrənilməsinin zəruriliyini qeyd edib. Həmçinin "Difai" təşkilatının yaranmasında N.Yusifbəylinin rolunun, o cümlədən İsmayıl bəy Qaspıralı ilə olan münasibətlərinin araşdırılmasının vacibliyini nəzərə çatdırıb: "Nəsib bəy Yusifbəylinin haqqı hələ də tam verilməyib. Milli Məclisdə çıxışımda da qeyd etdim ki, Nəsib bəyin 140 illiyi daha fərqli formada keçirilməliydi. Çünki N.Yusifbəyli iki dəfə Azərbaycan hökumətinə rəhbərlik etmiş, Azərbaycanın müstəqilliyi məhz onun vaxtında tanınmış şəxsiyyətdir. O, Məhəmməd Hadiyə bənzər ömür yaşadı, ikisinin də məzarı tapılmadı. Firudin by Köçərli Məhəmməd Hadi haqqında "o qeyb oldu" deyirdi. Yəni "öldü", "vəfat etdi" formasında demədi, "qeyb oldu" şəklində dedi.

*(Davamı səh.9)*

# İstiqlal mücahidi:

# Nəsib bəy Yusifbəyli anıldı









***(Əvvəli səh.8)***

Əslində Nəsib bəy Yusifbəyli də hansısa formada Azərbaycan cəmiyyətində qeyb olmuş və nə zamansa başqa formada bu cəmiyyətə özünün kimliyini qaytarıb, şəxsiyyəti ilə nümunə təqdim edə biləcək bir xarakteri ortaya qoyacaq. Nəsib bəyin xarakterində 4 cəhəti vurğulamaq istərdim. İlk növbədə o, kənarda olsa belə ”Difai” təşkilatının yaradılmasında önəmli rol oynayıb. Azərbaycanlıların ermənilərlə mübarizədə üstünlük qazanmasını təşkil edən şəxslərdən idi. O zaman Gəncə mərkəzli milli düşüncə daha çox öndəydi. Nəsib bəy türk dünyasının öndərlərindən olan İsmayıl bəy Qaspıralı ilə ən yaxın təmas quran Azərbaycanda azsaylı şəxslərdən biridir. Nuru paşanın Batumda həbsxanadan qaçırılmasında da Nəsib bəyin müstəsna rolu olub. O zaman ingilislərə qarşı belə bir addım atmaq böyük risk tələb edirdi. Amma bu həm də kişilik nümunəsi idi. Nuru paşanın 1918-ci ildə Azərbaycan xalqı üçün etdiklərinin əvəzini, onun haqqını Nəsib bəy onu həbsdən xilas edərək qaytardı. Bu fakt başımızı uca edən ən mühüm faktlardandır. Ona görə də bu hadisənin filmləşdirilməsi, bugünkü və gələcək nəsillərə tanıdılması olduqca vacibdir”.

**Millət vəkili, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov çıxış edib. Millət vəkili çıxışında Nəsib bəy Yusifbəylinin ictimai-siyasi fəaliyyətindən söz açıb.** Onun fəaliyyət göstərdiyi dövrdə Bakı Dövlət Universitetinin yaranması, yüzlərlə tələbənin xaricdə təhsil alması üçün səy göstərməsi, hökumət işçiləri arasında milli kadrların yerləşdirilməsi, həmçinin ana dili ilə bağlı bir sıra məsələlərin öz həllini tapdığını qeyd edib. Xüsusilə, Nəsib bəy Yusifbəylinin atasının ona yazdığı məktubundakı əsas amillərə toxunaraq, özünü xalqına və millətinə həsr etmiş şəxsiyyətə həsr olunmuş konfransın əhəmiyyətini yüksək qiymətləndirib: ”O dövrdə Azərbaycanın hər yerində ruslar, ermənilər təhsil sahəsində çalışırdı. Milli kadrlar yox idi, savadsızlıq geniş yayılmışdı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə baş nazir, daxili işlər naziri, xalq maarifi naziri, dini etiqad naziri kimi mühüm postlarda xidmət göstərib. Həyatlarına nəzər saldıqda o insanların nə qədər ideal şəxs olduqlarını, Azərbaycana bağlılıqlarını, ölkəmizi dirçəltmək üçün bütün gücləri ilə çalışdıqlarını görürük. Onların öyrənilməsinə böyük ehtiyacımız var. Görəcəyimiz işlər çoxdur”.

**Türk Ocaqları İstanbul şöbəsinin müdiri Cezmi Bayram da konfransa onlayn formatda qoşularaq, tədbir iştirakçılarını salamlayıb.** Nəsib bəy Yusifbəylinin faciəvi sonluqla nəticələnən həyatından geniş bəhs edib. Onun Cümhuriyyət dövründəki fəaliyyətini qeyd edərək, milli şüurun formalaşmasında əvəzsiz xidmətlərindən danışıb: ”Nəsib bəyin Azərbaycan Cümhuriyyətinin quruluş və təşkilatlanma dönəmində xüsusi xidmətləri olub. O, məsləkdaşları kimi Azərbaycanın müstəqilliyinə nail olmuş, müxtəlif vəzifələr icra etmiş görkəmli şəxslərdəndir. Önəmli fikir adamıdır. Nəsib bəyin indiki və gələcək nəslə anladılmasında böyük fayda var. O baxımdan bu konfrans çox vacibdir”.

Daha sonra konfrans öz işini panellərlə davam etdirib. Elmi konfransda Azərbaycanın, eləcə də Türkiyənin ali təhsil müəssisələrinin professor və alimlərinin Nəsib bəy Yusifbəyli haqqında məruzələri dinlənilib.

**Ankara Universitetinin professoru, tarixçi-alim Nəsib Nəsibli ”Millət qurucularımız” adlı məruzəsində bəyan edib ki, Nəsib bəy Yusifbəyli millətin könlündə taxt qurmuş bir şəxs olub.** Alim vurğulayıb ki, ölkəmizdə və Güney Azərbaycanda millət və dövlət quruculuğunu irəli aparan onlarca şəxsiyyətimiz var:

Nəsib bəy sadəcə tarixlərdə qalacaq qəhrəmanımız deyil, üzərindən yüz illər keçsə də, o, bizim müasirimizdir. Çünki Yusifbəyli adı millətləşmə prosesində ən mühüm iştirakçıdır. Millətləşmə bayrağımızda əks olunan milli kimliyimizdir. Çağdaşlaşmaq, əxlaqi-mənəvi dəyərlərdir. Atasının Nəsib bəyə yazdığı məktub indiki nəslə çox gözəl örnəkdir. Nəsib bəy Yusifbəyli örnək şəxsiyyət dediyimiz kateqoriyaya aiddir. Onun ən böyük əsəri də elə öz həyatı olub. Biz 38 yaşlı adama hələ də uşaq deyirik. Nəsib bəy 38 yaşında o qədər böyük işlər gördü ki”.

**Tarix elmləri doktoru, professor Nəsiman Yaqublu isə ”Nəsib bəy Yusifbəylinin parlament fəaliyyəti” adlı məruzə ilə çıxış edib.** Tarixçi qeyd edib ki, 1990-cı ilin əvvəllərində Türkiyədə Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları arasında araşdırma aparanda ilk görüşdüyüm insanlardan biri Nəsib bəy Yusifbəylinin qızı Zöhrə xanım oldu: ”Zöhrə xanım mənə 3 hədiyyə verdi. Onları öz arxivimdə saxlayıram. Birinci hədiyyə Nəsib bəyin 1905-ci ildə Baxçasarayda çəkdirdiyi fotonun orijinalıdır. İkincisi, ”Odlu Yurdu” jurnalının 28 may istiqlalına həsr edilən xüsusi sayıdır. Üçüncüsü isə 1923-cü il sentyabrın 6-da İstanbulda çıxmış ”Yeni Qafqaziya” dərgisinin ilk sayıdır. Nəsib bəy Yusifbəyli həqiqətən Azərbaycan xalqının yetişdirdiyi ən görkəmli şəxslərdən biridir. O, bir neçə sahə üzrə nazir vəzifəsində çalışıb. Həm baş nazir, maarif naziri, dini etiqad naziri, həm də daxili işlər naziri olub. Yəni bu insan həyatını bütövlükdə Azərbaycanın dövlət quruculuğuna həsr edib və hər sahədə də uğurlu nəticələr qazanıb. Nəsib bəy Azərbaycan neftini milli pulla dünyaya satmağı təklif edirdi. Cümhuriyyətin milli valyutası məhz Nəsib bəy Yusifbəylinin zamanında dövriyyəyə buraxıldı. O, mətbuat, söz azadlığına böyük diqqət yetirirdi. Bəyan edirdi ki, kim nə istəsə deyə, yaza bilər, amma heç kim Azərbaycan istiqlaliyyətinə dil uzada, ona toxuna bilməz. Cümhuriyyət dövründə təxminən 800-ə qədər məktəb açıldı. 7800-dək şagird məktəblərdə təhsil aldı. Yüzə yaxın tələbə xaricə göndərildi. Bakı Dövlət Universiteti yaradıldı. BDU-nun yaradılmasının əsas təşəbbüskarı Nəsib bəydir. Universitetin yaradıldığı tarix 1919-ci ilin sentyabrından başlamır, çoxları bunu o cür qələmə verir. Ancaq həmin ilin aprel ayında Nəsib bəy öz çıxışında BDU-nun yaradılması məsələsini qaldırıb”.

**Tarix üzrə fəlsəfə doktoru Lətif Babayev ”Cümhuriyyətin dövlət təhlükəsizliyinin təmin edilməsində Nəsib bəy Yusifbəylinin rolu” adlı məruzə ilə çıxış edib.** Alim bildirib ki, Nəsib bəy Yusifbəyli Azərbaycanın qarşısında duran taleyüklü məsələlərin uğurla həyata keçirilməsində yaxından iştirak edən, müəyyən dövrdə həmin vəzifələri müəyyənləşdirən və fəaliyyətin təşkilinə rəhbərlik edən şəxslərdən olub: ”Cümhuriyyətin qurulması ərəfəsində və müstəqil dövlət quruculuğunun ilk ayları və onun Cümhuriyyətin 4-cü, 5-ci hökumətlərinə rəhbərlik etdiyi dövr. Nəsib bəy müstəqilliyin elanına qədər artıq 17 ildən artıq bir müddət idi ki, yüksək intellekti, milli ideyalara sədaqəti, həqiqi liderlik keyfiyyətləri ilə xalq arasında kifayət qədər hörmətə və nüfuza malik qətiyyətli siyasətçi, Azərbaycanın siyasi səhnəsində mühüm yer tutan şəxsiyyət kimi tanınırdı. Bu baxımdan onun Azərbaycanda müstəqil dövlət quruculuğu prosesində, xüsusi ilə təhlükəsizlik məsələlərinin həllində söz sahiblərindən biri olması arzuedilən olduğu qədər də təbii idi”.

**Tarixçi-alim, dosent Firdovsiyyə Əhmədova ”İstiqlal tarixinə yazılan Nəsib bəy ömrü” mövzusunda məruzə ilə çıxış edib.** Alim bəyan edib ki, bu konfrans dünyada Nəsib bəy barədə təşkil olunmuş yeganə tədbirdir: ”Nəsib bəy 38 yaşında elə bir fəaliyyət ortaya qoyub ki, hər sahə ilə bağlı saatlarla danışmaq mümkündür. Nəsib bəyin əməli, siyasi və dövlətçilik fəaliyyətinin aparıcı xətti istiqlaliyyətdir. İstiqlalçılıq onun həyat kredosudur. Bu da insanın daxilində olan mənəvi dəyəridir. 24 yaşında Nəsib bəy Şəfiqə xanıma məktubunda yazır ki, ”mən bilirəm ki, heç vaxt kölə olmayacam, onu da bilirəm ki, sən də heç vaxt kölə olmayacaqsan. Amma sən kölə olsaydın, səni sevməzdim”. Onun düşüncəsində, əməlində, sonrakı dövrdə fəaliyyətində azadlıq ruhu var idi. Nəsib bəy şəxsi azadlığını dövlətin, millətin azadlığı səviyyəsində bərqərar olması yönündə fəaliyyətini qurub. Ona görə də ən çətin məqamlarda Nəsib bəy yardıma ehtiyac duyduğu zamanda belə hürriyyət fikrindən az da olsa güzəştə getməyib”.

**Filologiya üzrə fəlsəfə doktoru İlhamə Qasəbova ”Nəsib bəy Yusifbəylinin mətbu fəaliyyəti və maarifçilik ideyaları” adlı məruzəsində bildirib ki, Nəsib bəy Odessada təhsil alarkən daha böyük addımlara imza atıb. Filoloq qeyd edib ki, Odessa onun həyatında dönüş nöqtəsinə çevrilib:** ”Nəsib bəy Krımda İsmayıl bəy Qaspıralı ilə tanış olur və ”Tərcüman” qəzetində fəaliyyətə başlayır. Bununla da qılıncdan da iti olan siyasi düşüncələrini mətbu orqanlarda ifadə etmək imkanı əldə edir. O, Azərbaycan və Krım arasında ədəbi-mədəni körpü yarada bilir. Məqsədi Azərbaycan ədəbiyyatında və mədəniyyətində baş verənləri Krımdakı mədəni mühitə çatdırmaq idi. O, İstanbulda da eyni amala xidmət edib. Əfsuslar olsun ki, belə bir şəxsiyyətin adını dərsliklərdə görmürük”.

**Tarixçi Boran Əziz ”Milli idealın gerçəkləşməsində Nəsib bəyin rolu” mövzusunda çıxışı zamanı deyib ki, milli mücadilə dövrünə möhür vuran şəxslərdən biri Nəsib bəy Yusifbəyli olub:** ”Həmin dövrdə əsas məsələ Rusiyanın gələcək dövlət quruluşu və müsəlmanların, türklərin hansı haqq və hürriyyətlərə sahib olacağı idi. Azərbaycanda da bununla bağlı fərqli fikirlər var idi. Ölkəmizdə o zaman 3 əsas baxış var idi. Sosialist, dini-mühafizəkar və milli-demokratik, yaxud millətçi-demokratik cərəyanlar idi. Onların ikisi müsəlmanların gələcəyini vahid Rusiya ilə birlikdə gördükləri halda yalnız milli-demokratik cərəyan Rusiyanın gələcək idarə quruluşunu demokratik-federativ və türklərə ərazi muxtariyyəti verilməsində görürdülər. Bu cərəyan özü də iki qoldan ibarət idi. Bakı və Gəncə qolu. Gəncə qoluna Nəsib bəy başçılıq edirdi”.

**Azərbaycan ”Türk Ocağı”nın aparat rəhbəri, ”CARÇI Express” jurnalının baş redaktoru Sərxan Carçı ”Nəsib bəy Yusifbəyli Türk Ocaqlarının üzvü kimi” mövzusunda çıxış edib.** Tədqiqatçı bildirib ki, 2 il öncə Bakıda türk tasavvuf yazarı Məryəm Aybikə Sinan xanımın kitablarının təqdimatında o da iştirak etmişdi: ”Məryəm Aybikə xanım Nəsib bəylə bağlı ciddi roman üzərində işləyirdi. Təbii olaraq söz Nəsib bəy Yusifbəylidən düşdü və Məryəm xanım Nəsib bəyi Atatürklə müqayisə etdi. Mən tədbirdə dedim ki, bəli, Nəsib bəy Atatürklə müqayisə olunacaq şəxsdir. Buna bir çox səbəb var. Ən azından ona görə ki, Atatürk böyüklük edib, millətin adını dövlətə verdiyi kimi, Nəsib bəy Atatürkdən hələ illər öncə millətin adını qurucusu olduğu partiyanın adına yansıtmışdı. Təbii ki, bu, belə də olmalı idi. Çünki Nəsib bəy Yusifbəyli Rusiya müsəlmanları arasında türkçülük hərəkatının ideoloqlarından idi. Böyüklüyü onda idi ki, dövlətçilik naminə qurucusu olduğu partiyadan vaz keçərək, Türk Ədəmi Mərkəziyyət Partiyasını Müsavat Partiyası ilə birləşdirməyi qərara almışdı. Məhz bu birləşmənin nəticəsi idi ki, Müsavat Partiyası həm Milli Şurada, həm də parlamentdə say etibarı ilə birinci yerdə idi”. S.Carçı vurğulayıb ki, cümhuriyyətimiz üçün göz yaşı axıdan təkcə Şəfi bəy Rüstəmbəyli olmayıb. Cümhuriyyətimiz üçün göz yaşı axıdanlardan biri də Nəsib bəy olub: ”Həm də Nəsib bəy Şəfi bəy kimi cümhuriyyətimiz süqut edəndə deyil, hələ cümhuriyyətimiz qurulmadan öncə cümhuriyyətimizin qurulmasından ötrü göz yaşı axıdıb”.

**Araşdırmaçı-yazar Ceyhun Mirzəli ”Nəsib bəy Yusifbəylinin Təslim hekayəsi və publisistikası” mövzusunda məruzəsi zamanı bildirib ki, Cümhuriyyətin yaradıcılarından olan ilk təhsil naziri və sonradan baş nazir olan Nəsib bəy Yusifbəylinin yazılı irsi az araşdırılıb. Onun sözlərinə görə, Nəsib bəyin günümüzdə məlum olan yeganə hekayəsi ”Təslim”dir:** ”Bu hekayə 2004-cü ildə Əlyazmalar İnstitutunun arxivindən aşkar olunub. Təslim mahiyyət etibarı ilə maarifçi ideyaların təbliği üzərində qurulmuş nəsr əsəridir. Nəsib bəy əsərinə xalq arasında hörmət qazanmış Şah Abbası xatırlatmaqla başlayır. Gəncədə Səfəvilər zamanında inşa edilmiş mədrəsəni təsvir edir. Mədrəsənin köhnəliyindən bəhs edən zaman onun əskiliyini göstərməklə yanaşı qarşıda təzə tikilmiş yeni binadan danışır. Hekayədə yeniliklə köhnəliyin mübarizəsinin təkcə binalarda yox, dünyagörüşlərdə olması əksini tapır. Mədrəsədə müəllimlər arasındakı münasibətlər təsvir olunur.”

*Araşdırmaçı vurğulayıb ki, Nəsib bəy Yusifbəylinin publisistikası əsasən böyük türk aydını İsmayıl bəy Qaspıralının ”Tərcüman” qəzeti ilə bağlı olub: ”Təəssüf ki, hələ onun publisistikasından az nümunələr günümüzə gəlib çatıb. Lakin Nəsib bəyin yazılarında biz onun dünyagörüşünü aydın sezə bilirik. Nəsib bəyin mətbuatda çap etdirdiyi yazıların bir qismi reportaj, bir qismi də məqalə xüsusiyyətindədir”.*

**İsmayıl Qocayev**

# Xəzərdəki partlayışla bağlı vaxtında dəqiq və operativ məlumatlandırma olmadı





## *Hadisə göstərdi ki, bəzi dövlət orqanları hələ də ekstremal vəziyyətlərə hazır deyil*

Xəbər verdiyimiz kimi, iyulun 4-də Xəzər dənizində güclü partlayış baş verib. Bununla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən dərhal müvafiq araşdırma işlərinə başlanılıb.

Nazirliyin mətbuat xidmətindən verilən xəbərə görə, ilkin araşdırma zamanı dənizdə neft-qaz hasilatı, digər sənaye və nəqliyyat infrastrukturlarına aid obyektlərdə hər hansı fövqəladə hadisə baş verməyib.

Lakin baş verən hadisə bəzi suallara səbəb olub. Müəyyən iddialar var ki, Xəzərdə yaşananlar təxribatın nəticəsidir. Burada xüsusilə Rusiya və İranın adı çəkilir. Maraqlıdır, sözügedən partlayışda hansı ölkənin əli var?.

**Sualımızı cavablandıran "Müstəqil Mətbuat Mərkəzi" İctimai Birliyinin sədri, politoloq Elçin Xalidbəyli "Şərq"ə açıqlamasında vurğulayıb ki, iddialar böyük ehtimalla şayiələrdən başqa bir şey deyil:** "Həmin iddiaların yayıldığı vaxt ümumiyyətlə, nəyin partladığı belə, məlum deyildi. Əgər nəyin partladığı məlum deyildisə, həmin iddiaların müəllifləri nəyin partlatdığını haradan bilərdilər? Onların iddiaları doğru olsaydı, əvvəlcə partlayan obyekt barədə məlumat verməli idilər. Halbuki, bunların heç birisi baş vermədi.

Sonradan məlum oldu ki, baş verən hadisə hansısa obyektin partlaması deyil, palçıq vulkanının partlamasıdır. Yəni sadəcə, təbiət hadisəsidir".

*E.Xalidbəyli qeyd edib ki, şayiə xarakterli iddiaların yaranmasında iki əsas səbəb ola bilər:* "Birincisi, əlaqədar dövlət qurumları uzun müddət baş verən olayları normal informasiya ilə izah edə bilmədi. Hətta ziddiyyətli və bir-birini təkzib edən məlumatlar yaydılar. Bu da dövlət qurumlarına rəhbərlik edən bəzi şəxslərin qeyri-peşəkar olduğunu göstərir. Onların belə hadisələrə hazır olmadığından və ekstremal situasiyaları idarə etmək qabiliyyətinə malik olmadıqlarından xəbər verir.

Digər səbəb isə baş vermiş hadisələri fürsətə çevirmək üçün pusquda məqam gözləyən qüvvələrin "fəallığı" ola bilər. Heç kimə sirr deyil ki, ölkədə panik durum yaratmaq üçün məqam gözləyənlər var. Böyük ehtimalla belə məqam gözləyənlər bu dəfə də məlumatsızlıqdan, daha sonra isə ziddiyyətli rəsmi açıqlamalardan faydalanmağa çalışdılar. Rusiya və İran ilə bağlı əsassız iddialar ortaya atmaqla, geniş şayiə mühiti yaratmağa cəhd göstərdilər. Yəqin ki, əsas məqsəd Azərbaycan vətəndaşları arasında xof, qorxu, xaos yaratmaq idi. Ancaq baş tutmadı.

Bununla belə, hüquq-mühafizə orqanlarının məqsədli şayiə yayma cəhdlərinin araşdırması lazımdır. Eyni zamanda, hökumət öz fəaliyyətini təkmilləşdirməlidir. Belə ekstremal hadisələr baş verərkən, dərhal cəmiyyətə operativ məlumat verməyə çalışmalıdır. Müasir texnologiyaların hökm sürdüyü şəraitdə yalnız dəqiq və operativ məlumatlandırma ilə şayiə texnologiyasının qarşısını almaq mümkündür".

**Yeganə Bayramova**



## Rusiya və NATO Belarusda qarşı-qarşıyadır

### "ABŞ regionda özünə dayaq yaratmaq niyyətindədir"

**Belarus Prezidenti Aleksandr Lukaşenko sərhəd qoşunlarına Ukrayna ilə sərhədi tamamilə bağlamağı tapşırıb. Lukaşenko bu əmri Ukrayna ərazisindən ölkəyə xeyli sayda silah-surat keçirildiyinə görə verdiyini bildirib.**

"Ukraynadan Belarusa çox sayda silah gəlir. Buna görə sərhəd qoşunlarına tapşırdım ki, Ukrayna ilə sərhədi tamamilə bağlasınlar", - deyə Lukaşenko qeyd edib. Onun sözlərinə görə, ölkədə Almaniya, Ukrayna, ABŞ, Polşa və Litvanın əli olan passiv terror hücrələri aşkar edilib.

**BDU-nun müəllimi, beynəlxalq məsələlər üzrə ekspert Sultan Zahidov "Şərq"ə açıqlamasında sözügedən qərarı belə şərh etdi:** "Son vaxtlar ölkədə Lukaşenko hakimiyyətini istəməyən qüvvələr var. Onların xaricdən dəstək almaq imkanları kifayət qədər çoxdur. Məhz bu məqsədlə prezident sərhədlərin bağlanması barədə əmr verib".

**S.Zahidov, həmçinin Rusiyanın da proseslərdəki mövqeyi barədə danışıb:** "Qərb, xüsusilə ABŞ regionda özünə dayaq yaratmaq niyyətindədir. Eyni ilə Gürcüstanda və Ukraynada olduğu kimi. Əlbəttə, Rusiya NATO-nun Belarusda möhkəmlənməsini istəmir. Odur ki, Lukaşenkoya təzyiq edir. Belarus prezidenti bir çox məqamlara görə Moskvadan asılı olduğu üçün rusiyalı həmkarına boyun əyir".

**Kənan**

# Taliban meydan sulayır

## *"Əfqanıstan qarabağlıları üçün təhlükə davam edir"*

"Əfqanıstandan həyəcanlı xəbərlər gəlir. ABŞ və müttəfiqlərinin hərbi qüvvələrini Əfqanıstandan çıxarması qərarı Talibanı hərəkətə gətirib. ABŞ ordusu Əfqanıstanı hələ tərk etməmiş artıq Taliban bir çox rayonları ələ keçirib". Bu fikirləri araşdırmaçı-jurnalist Kənan Rövşənoğlu "Şərq"ə açıqlamasında deyib. O bildirib ki, son olaraq Qəznə vilayətində 3 rayon bir sutka ərzində Talibanın nəzarətinə keçib: "Qəznə valisi bu gedişlə yaxın günlərdə Talibanın bütün vilayəti ələ keçirəcəyini bildirib.

Əfqanıstan Müdafiə Nazirliyi ölkənin şimalında Faryab vilayətində Puştun Kot və Pervan vilayətinin Şinvari rayonlarında Talibanla döyüşlərin davam etdiyini açıqlayıb. Hələlik bu rayonları Talibandan almaq mümkün olub. Ancaq vəziyyət o qədər də ürəkaçan deyil. Əfqanıstan ordusunun hissələri bəzi rayonlarda müqavimət göstərmədən çəkilir. Bəzi yerlərdə isə əsgərlər Talibana qatılır. 14 vilayətdə davam edən döyüşlərdə 235 Taliban silahlısının öldürüldüyü, 161 silahlının yaralandığı bildirilir. Qeyd edək ki, 2020-ci il fevralın 29-da Qətərdə ABŞ və Taliban nümayəndələri arasında əldə olunmuş razılaşmaya əsasən münaqişə dayandırılacaq və ABŞ ordusu 2021-ci il mayın 1-dən Əfqanıstanı tərk edəcək. Artıq AŞ ordusunu çıxarmağa başlayıb. Mayın 1-dən başlayan proses sentyabrın 11-dək davam edəcək. ABŞ Mərkəzi Qüvvələr Komandanlığı (CENTCOM) son olaraq Əfqanıstandakı ABŞ qüvvələrinin 50 faizinin çıxarıldığını, 6 hərbi bazanın Əfqanıstan ordusuna təhvil verildiyini açıqlayıb. Lakin nə qədər qüvvə çıxarıldığı, nə qədərinin qaldığını açıqlamayıb".

*K.Rövşənoğlu əlavə edib ki, ABŞ ordusunun çıxması ilə paralel olaraq Taliban ölkənin bütün istiqamətlərində fəallaşıb:* "Ənənəvi olaraq Talibanın fəal olduğu cənub əyalətləri ilə yanaşı, hazırda Taliban qüvvələri ölkənin mərkəzi və şimal əyalətlərində hücumlarını davam etdirir. Son məlumatlara görə, Taliban qüvvələri Qarabağ rayonuna hücum edib. Hazırda Talibanın hücumları 90-cı illərin əvvəlini xatırladır. 1989-cu ildə SSRİ hərbi qüvvələri Əfqanıstanı tərk etdikdən az bir müddət sonra sovet ordusuna qarşı döyüşmüş Şimal Alyansı qüvvələri, Əhməd Şah Məsud, Əbdürrəşid Dostum, həmçinin Gülbəddin Hikmətyar, Bürhanəddin Rəbbani və digərlərinin hərbi birləşmələri hücum edərək 1992-ci ildə Məhəmməd Nəcibullanın SSRİ tərəfdarı hakimiyyəti devirərək Kabili ələ keçirdi. Ancaq antisovet koalisiyasının hakimiyyəti uzun sürmədi və 1996-cı ildə Taliban hücum edərək Kabili ələ keçirdi və ölkədə şəriət hakimiyyətini bərqərar etdi. Talibanın 5 illik hakimiyyəti isə 2001-ci il 11 sentyabr hadisələrindən sonra ABŞ-ın hərbi müdaxiləsi sonrası devrildi. İndi isə Taliban yenidən Əfqanıstanın rayonlarını bir-bir ələ keçirir. Bu ayın əvvəlinə olan məlumata əsasən Əfqanıstanın 407 rayonundan 90-da Taliban, 64-də isə mərkəzi hökumətin hakimiyyəti var. Qalan rayonlarda isə döyüş əməliyyatları gedir və hər gün bu və ya digər rayon Talibanın, yaxud da hökumət qüvvələrinin əlinə keçir".



**K.Rövşənoğlu vurğulayıb ki, Talibanın sürətlə Kabilə doğru irəliləməsi ölkədə yeni dinc insan qırğınlarının olacağı ilə bağlı narahatlıq yaradıb:** "Doğrudur, Taliban bəyanat yayaraq etnik və dini-məzhəbi qırğınlarının olmayacağını bəyan edib, lakin buna baxmayaraq narahatlıq qalır.Yeri gəlmişkən, Əfqanıstanda böyük azərbaycanlı icması mövcuddur. Bəzi ehtimallara görə, Əfqanıstana qarabağlı tayfalar 18-cə əsrdə Nadir şah zamanında qızılbaş türkmən tayfaları Əfqanıstan ərazisinə köçürülən zaman Əfqanıstana yerləşiblər. Bu tayfalar bir formada Qızılbaş dövlətinin sərhəd təhlükəsizliyi məqsədi ilə İmperiyanın uzaq sərhədlərinə köçürülürdü. Həmin vaxt Qarabağ, Urmiya və Həmədan vilayətlərindən qızılbaş türkmən tayfaları Əfqanıstanın Kabil, Herat, eləcə də Qəndəhar vilayətlərinə yerləşdirilib. Əfqanıstanda hazırda mövcud olan Qarabağ adlı iki yaşayış məntəqəsindən biri Kabil şəhərindən 60 km şimalda, Baqram aviabazasının 20 km cənub-şərqində yerləşir. Burada təxminən 20 min insan yaşayır. İkinci Qarabağ rayonu isə Kabildən cənub-şərqdə Qəzni vilayətinin eyni adlı mərkəzindən cənubda yerləşir. Qəzni vilayətinin 19 rayonundan biri olan Qarabağ rayonunda 60 minə yaxın insan yaşayır. Əfqanıstan qarabağlıları üçün təhlükə davam edir. Ümid edirik ki, adında Qarabağ olan ikinci bir məkan 1990-cı illərdə Qarabağda yaşananlar təkrar olmaz".

**Aynurə Pənahqızı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

# Qəhrəmanlarımızın övladları sevindi

## *Yay düşərgələrinin üstünlükləri, müsbət tərəfləri çoxdur*

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan qəhrəmanların övladları üçün "Qaliblər düşərgəsi" fəaliyyətə başlayıb. Layihə "For Azerbaijan" Xeyriyyə Təşkilatının təşəbbüsü və dəstəyi, Dövlət Miqrasiya Xidmətinin təşkilati dəstəyi reallaşır. Bundan əlavə layihənin reallaşmasında Təhsil Nazirliyi, Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət Nazirliyi, Sosial Xidmətlər Agentliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Bakı Nəqliyyat Agentliyi, Dövlət Turizm Agentliyi, həmçinin digər dövlət qurumları, özəl sektor və qeyri-hökumət təşkilatları da iştirak edir.**

Təşkilati-logistik məsələlər üzrə tərəfdaş ”Miqrasiya Könüllüsü” İctimai Birliyidir. Düşərgə 13-14 yaşlı yeniyetmələr üçün nəzərdə tutulur. Düşərgə layihəsinin həyata keçirilməsində məqsəd şəhid övladlarının intellektual və emosional inkişafına dəstək vermək, onların yay tətilini daha da maraqlı və yaddaqalan etməkdir. Düşərgədə Azərbaycan Könüllülər Təşkilatının üzvləri də layihə müddətində iştirakçıları müşayiət edəcəklər.

Şüvəlan qəsəbəsi Humanitar Fənlər Təmayüllü Gimnaziyada 14 gün davam edəcək düşərgədə müxtəlif mövzuları əhatə edən təlimlər, fərdi dərslər, əyləncəli və intellektual oyunlar, idman və incəsənət sahələri üzrə dərslər təşkil olunacaq. Bundan başqa, Bakı şəhərinin görməli yerlərinə ekskursiyalar planlaşdırılır. Layihə çərçivəsində yeniyetmələr tanınmış ictimai xadimlər, idman, təhsil və mədəniyyət sahəsinin məşhur simalar ilə də görüşəcəklər.

Düşərgənin açılış mərasimində çıxış edərək layihənin əhəmiyyətinə toxunan Təşkilat komitəsinin sədri, Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov ”ForAzerbaijan” Təşkilatının hər bir üzvünə və bütün tərəfdaşlara təşəkkürünü bildirib. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman Vətən övladlarının yadigarları olan uşaqların hər birimiz üçün əmanət olduğunu, şəhid ailələrinə və onların övladlarına dövlət tərəfindən daim xüsusi diqqət və qayğı göstərildiyini vurğulayıb. Xidmət rəisi dövlət qurumlarının layihədə fəal iştirakını təqdirəlayiq hesab edib.

”For Azerbaijan” Xeyriyyə Təşkilatının qurucu üzvlərindən olan, ”Dentos” şirkətinin partnyoru Ülviyyə Zeynalova-Bockin çıxışında Təşkilatın əsas fəaliyyət məqsədlərindən söhbət açıb. Bildirib ki, qazi və şəhid ailələrindən olan uşaqların, gənclərin təhsilinin inkişafına töhfə vermək prioritetlər sırasındadır. Belə layihələrin gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Açılış mərasimində ”Qaliblər düşərgəsi”nin Əməliyyat Komitəsinin rəhbəri, Dövlət Miqrasiya Xidmətinin İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Elnur Kələntərov tədbir iştirakçılarına layihənin hazırlıq prosesində görülmüş işlər barədə ətraflı məlumat verib. 76 nəfərlik Düşərgə iştirakçıları üçün nəzərdə tutulmuş təlim, ekskursiya və əyləncə proqramları ilə bağlı təqdimat edib.

Yay düşərgələri ənənəsi sovetlər dönəmində də olub. Həm də yayqın, kütləvi. Yay düşərgəsində şəxsən iştirak etmiş şəxs kimi (M.R- red) uşaqların hansı formada istirahət etdiyinin, hansı vərdişlərə yiyələndiyinin şahidi olmuşam. Həqiqətən də uşaqların fiziki inkişafında, təlim-tərbiyəsində yay düşərgələrinin - sovet illərində onlar ”pioner düşərgəsi” adlanırdı - özünəməxsus yeri vardı. Bəzi milli filmlərimizdə düşərgə elementləri var (məsələn, ”Bəxt üzüyü” filmində). ”Pioner düşərgəsi”nin üstün cəhətləri o idi ki, ölkənin müxtəlif bölgələrindən gələn məktəblilər ayrı-ayrı yaş qruplarında cəmlənirdi. Düşərgənin xüsusi rejimi olurdu, səhər yataqdan qalxma vaxtı-yuyunmaq-idman- səhər yeməyi - əmək saatı -tədris-təlim məşğələləri-nahar-günorta yuxusu vaxtı- ekskursiya-hansısa oyunlar, gəzinti-şam yeməyi-axşam proqramı, musiqi, rəqslər, film nümayişi - ümumilikdə istirahət saatı və yatmaq saatı - bu rejimə dəqiqliyi ilə əməl etmək tələb olunurdu. Uşaqların 20-22 gün ərzində (düşərgənin I növbəsi) belə bir rejimə tabe olması istər-istəməz onlarda hansısa vərdişlərin formalaşmasına səbəb olurdu. Səbəb olmasa belə, uşaqlar bu müddət ərzində düzgün həyat tərzi keçirir, düzgün qidalanır, istirahət edirdilər. Bu, əlbəttə ki, onların fiziki inkişafına müsbət təsir edən amil idi. Müstəqilliyimizin bərpasının ilk illərində düşərgələr fəaliyyətini bir müddət davam etdirdi, amma təbii ki, artıq ”pioner” düşərgələri olmadı. Sonralar müxtəlif rəsmi strukturlar, həmkarlar konfederasiyası tərəfindən də yay düşərgələri təşkil edilməyə başladı. Onlardan ən məşhuru Daxili İşlər Nazirliyinin təşkil etdiyi, Milli Qəhrəman Çingiz Mustafayevin adını daşıyan yay düşərgəsi oldu. Səhv etmirəmsə, bu düşərgə ödənişli idi. Hazırda fəaliyyətə başlayan ”Qaliblər düşərgəsi”nin üstün və fərqli cəhəti isə layihənin məhz Vətən müharibəsi şəhidlərinin övladlarını əhatə etməsi və təmənnasız olmasıdır. Düşərgənin məqsədi, vəzifəsi bəllidir. Düşərgənin hansı müsbət cəhətləri olacaq və yüniyetmələrə nə qazandıracaq?




**"Uşaqlar ünsiyyət bacarığına yiyələnir, sosiallaşırlar, düzgün fiziki tərbiyə alır, düzgün qidalanır, tədris-təlim proqramlarında iştirak edirlər"**

**Təhsil məsələləri üzrə ekspert Kamran Əsədov ”Şərq”ə açıqlamasında 1 ildən artıq müddətdə davam edən pandemiya şəraitində uşaqların fiziki-mənəvi tərbiyəsi istiqamətində boşluqlar yarandığını bildirdi:**

- Pandemiya şəraiti uşaqların qarşısına fiziki-psixoloji problemlər çıxarıb. Pandemiya səbəbindən əyani tədrisdən, məktəbdən kənar qalan, kütləvi tədbirlərdə iştirak etməyən uşaqlarda hərəkətsizlik, oturaq həyat tərzi, ünsiyyət yaratmaq problemləri yaranır. Uşaqların fiziki-mənəvi inkişafı nəzərə alınaraq 16-30 iyun tarixləri arasında yay məktəbi layihəsi icra olundu ki, uşaqların məktəblə əlaqəsi tamam qırılmasın. Amma yay düşərgəsi daha böyük, daha çox üstünlükləri olan layihədir. Yay düşərgələrinin kifayət qədər müsbət tərəfləri var. Uşaqlar ünsiyyət bacarığına yiyələnir, sosiallaşırlar, düzgün fiziki tərbiyə alır, düzgün qidalanır, tədris-təlim proqramlarında iştirak edirlər. Evdən kənarda özünü idarəetmə qabiliyyətinə yiyələnirlər. ”Qaliblər düşərgəsi”ndə hansı proqramlar icra olunacaq, açıqlanıb. Hamısı da yeniyetmələrin inkişafına yönəlmiş tədbirlərdir. Bu cür düşərgələrin sayının artması vacibdir. Hazırda ölkəmizdəki yay düşərgələri ümumi şagirdlərin yalnız 0,75 faizini əhatə edə bilir. Heç 1 faiz də deyil. Beynəlxalq standartlara görə isə yay düşərgələri şagirdlərin ən azı 200-300 minini əhatə etməlidir. Arzu edək ki, yaxın zamanda yay düşərgələrinin sayı artsın və mümkünsə, ödənişsiz, heç olmasa, minimum məbləğdə ödənişli olsun.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Kəskin dalğalanmalar var

## Yaxın günlərdə neftin qiymətində dəyişiklik gözlənilir



**”Neft qiymətləri ya 60-70 dollar koridoruna, ya da 80 dollardan yuxarı qiymət diapazonuna yerləşəcək, hər bir halda dalğalanmalar hiss ediləcək”. Bu barədə iqtisadçı-ekspert Natiq Cəfərli deyib.**

Ekspert bildirib ki, son illərdə ilk dəfədir ki, ”Brent” markalı neft ilə, ”WTI” markalı neftin qiyməti bərabərləşib. Hər iki növ neft 75-76 dollar koridorundadır: ”Keçmiş illərə baxsaq, hər dəfə belə fenomen baş verəndə neft qiymətləri kəskin dalğalanır. Çox güman ki, yaxın günlərdə yenə kəskin qiymət dəyişikliklərini izləyəcəyik. OPEC və Rusiya danışıqları davam edir. Səudiyyə və Rusiya hər ay 400 min barel olmaqla il sonuna qədər 2 milyon bareldən çox günlük hasilatı artırmağı, yəni süni yolla qiyməti hələ də yuxarıda saxlamağı təklif edirlər. Amma bir neçə ölkə bunun əleyhinə çıxır, hasilatı daha çox artırmaq təklifini irəli sürürlər. Çünki qiymət sərfəlidir, həm də bazar paylarını artırmağı düşünürlər. Səudiyyə və Rusiyanın təklifi keçsə kəskin bahalaşma ola bilər”.

**İsmayıl**

# Lazımı dəstək veriləcək

## Putin Əfqanıstanla bağlı söz verdi



**Rusiya Əfqanıstanda vəziyyətin gərginləşməsi ilə bağlı Tacikistana yardım edəcək. Sputnik Azərbaycan ”Kremlin”-ə istinadən xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Tacikistan rəhbəri Emomali Rahmonla telefon danışığı zamanı bildirib.**

”Vladimir Putin Tacikistana həm ikitərəfli, həm də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı çərçivəsində lazımi dəstəyi verməyə hazır olduğunu bildirib”, - deyə məlumatda qeyd olunur.

Həmçinin qeyd olunur ki, liderlər Rusiya-Tacikistan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin qarşılıqlı gücləndirilməsi və müxtəlif səviyyələrdə təmasların davam etdirilməsi barədə razılığa gəliblər.

*Xatırladaq ki, ABŞ və NATO qüvvələrinin Əfqanıstanı tərk etməsindən sonra ölkədə vəziyyətin gərginləşdiyi bildirilir. Qeyd olunur ki, ABŞ və NATO qüvvələrinin çəkildiyi şimal bölgələrini İŞİD-çilər ələ keçirməyə başlayıb.*

# Elə şəxslər var, 6 aydır təqaüd ala bilmir

*Çünki nə əlilliyi düzgün təyin edilib, nə də komissiyaya təqdim olunan tibbi arayış*



Əlilliyin qiymətləndirilməsi sahəsində şəffaflığın, obyektivliyin təmin edilməsi və göstərilən xidmətlərin keyfiyyətinin artırılması istiqamətində İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən davamlı tədbirlər görülür.

Agentlikdən verilən məlumata görə, 2021-ci ilin ilk altı ayı ərzində tibbi-sosial ekspertiza müayinəsinə göndərişlər vermək hüququ olan Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyindəki dövlət tibb müəssisələrində Agentlik öz səlahiyyətləri çərçivəsində daxili yoxlamalar aparıb. Nəticədə bir baş həkim (Sumqayıt şəhəri üzrə 3 nömrəli şəhər poliklinikası), üç direktor (Füzuli, Biləsuvar və Ağcabədi Rayon Mərkəzi Xəstəxanaları) və Həkim Məsləhət Komissiyalarının (Bakı şəhəri üzrə 19 nömrəli Şəhər Poliklinikası və 26 nömrəli Birləşmiş Şəhər Xəstəxanası) 12 üzvü vəzifələrinin icrası zamanı yol verdikləri bir sıra ciddi nöqsanlar, əlillik dərəcələrinin müəyyən edilməsi zamanı yol verdikləri qanun pozuntuları səbəbi ilə tutduqları vəzifələrdən azad edilib. Qeyd edək ki, Agentlik TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrinə müraciət etmiş şəxslərin əmək qabiliyyətinin müvəqqəti və ya tam itirilməsinin ekspertizasının aparılması, tibbi və əmək reabilitasiyası məsələlərinin təşkili, həmçinin Tibbi Sosial Ekspert Komissiyalarına (TSEK) göndərişlərin düzgün verilməsi məqsədilə Həkim Məsləhət Komissiyalarının

**Yoxlamalar başlayıb, baş həkimlərin, poliklinika rəhbərlərinin nöqsanı varsa işdən azad olunacaq**

fəaliyyətinə nəzarət edir. Əlilliyin qiymətləndirilməsində operativliyi təmin etmək, vətəndaş məmnunluğunu artırmaq, bu sahədə işin keyfiyyətini yüksəltmək, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-Sosial Ekspert Komissiyasına göndərişlərin verilməsi prosesini tənzimləmək məqsədilə Agentlik tərəfindən mütəmadi olaraq tədbirlər görülür.

**Məsələ ilə bağlı "Şərq"ə danışan həkim-terapevt Şahvələd Məmmədov qeyd etdi ki, əlilliyin təyini ilə bağlı son zamanlar müharibə iştirakçıları, qazilər, həmçinin əlilliyi olan vətəndaşlar da narazılıqlarını bildirirdilər. Mediada, sosial şəbəkələrdə bu məsələlərə geniş yer verilirdi. Problemin geniş əhali kütləsini əhatə etməsi hökumət tərəfindən ciddi addımlar atılması zərurəti yaratdı:**

- TƏBİB də üzərinə düşən vəzifəni yerinə yetirərək tabeliyindəki tibb müəssisələrində gərəkən yoxlamalara başlayıb. Nəticə özünü çox gözlətmədi. Müəyyən nöqsanlar aşkarlandı. Nöqsanlara yol verənlər cəzalandı, vəzifələrdən kənarlaşdırıldılar. Əlilliyin təyini qaydasına görə, bu məsələyə ayrı-ayrı şöbələrdə, tibb müəssisələrində baxılmır artıq. Əlilliyin təyini mərkəzləşmiş qaydada, "Bir pəncərə" sistemi ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təhkim olunmuş həkim-ekspert komissiyası tərəfindən aparılır. Lakin bu komissiyaya təqdim olunan arayışlar, "forma 88"lər yerli ərazi tibb bölmələri - poliklinikalar tərəfindən təqdim edilir. Nöqsanlar, səhvlər də burda baş verir. Bəzən yerli poliklinika şöbələri, xəstəxanalar əlilliyi düzgün təyin etmir, nəticədə komissiyaya təqdim olunan arayışlarda da yanlışlıqlar olur. Əlilliyi olan bəzi vətəndaşlar da buna görə əlillik təqaüdündən məhrum olurlar, ya da haqqı çatan, qanunla ona ödənməli olan təqaüdlərini ala bilmirlər. Elə şəxslər var, 6 aydır təqaüd ala bilmir, çünki nə əlilliyi düzgün təyin edilib, nə də komissiyaya təqdim olunan tibbi arayış. Bu nöqsanlara görə, insan maddi sıxıntı çəkir. Ona görə də TƏBİB belə bir yoxlamalara başlayıb, müsbət nəticəsi də görünür. Əlbəttə, "müsbət nəticə" deyəndə işdən azad edilmiş həkimləri nəzərdə tutmuram. Kimliyindən asılı olmayaraq işində nöqsana yol verənlər bunun cavabını da verməlidir. Dövlətimizin siyasəti budur ki, insanlar narazı qalmasın, insanların ehtiyacları qarşılansın. Əliliyi olan şəxslərsə həssas təbəqədir. Onlarla doğru-düzgün davranılmalıdır.

**Məlahət Rzayeva**



## Sentyabrdan əyani təhsil başlayacaq

Tələbələrdən COVİD-19 pasportu tələb olunacaq

**Məlum olduğu kimi, ölkədə vaksinasiya prosesi yüksək sürətlə davam edir.**

ADİU-nin rektoru Ədalət Muradovun bu günlərdə tələbələrə peyvəndlənmə ilə bağlı çağırışı beyinlərdə müxtəlif suallar yaradıb: Bir neçə ay sonra tələbələrdən COVİD-19 pasportu tələb olunacaq? Bəs bu sənədi olmayanların taleyi necə həll ediləcək?

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında həmin sualları cavablandırıb:** "Yoluxmaların azaldığını və vaksinasiya prosesinin uğurla davam etdiyini nəzərə alsaq, fikrimcə, sentyabrdan etibarən ali məktəblərdə əyani dərslər bərpa olunacaq. Amma tələbələrdən COVİD-19 pasportunun istəniləcəyini istisna etmirəm. İndi 18 yaşdan yuxarı işçilərdən həmin sənəd tələb edilir. Deməli, tələbələrə şamil olunması da mümkündür. Ən azından ona görə ki, ali məktəblərdəki sıxlıq yoluxmanı yenidən artıra bilər. Dediyim kimi, dərslər yalnız əyani qaydada başlayacağı təqdirdə tələbələrdən pasport istənilməlidir. Əks halda isə bu, məntiqli olmaz".

**Kənan**

## Kartla ödənişdə maraqlı deyil

"Bolt" qəpiyindən keçmir, amma qəpiklər qazanır




**"Bolt", bu sürücüləri xüsusi seçirsiz, siz Allah?! Kartla ödənişə ağız əymək nədir? Bəyənmirsiz, gəlməyin də. Elə bil, başına silah dayayıb gətiririk, ya da gedib pulunu vermirik...".**

Bu sözləri jurnalist Semra Əliəkbərli özünün "Facebook" hesabında yazıb: "Haqq verməmək olmur. Dəfələrlə olub ki, sürücü ödənişin hansı qaydada ödəniləcəyini soruşub. Niyə? Xeyirdimi? Məgər kartdakı pul deyil?!

**Nəqliyyat eksperti İlqar Hüseynli "Şərq"ə açıqlamasında "Bolt"un "hamam suyu ilə dost tutduğunu" dedi:** "Şirkətdə çalışanların əksəriyyəti öz şəxsi avtomobillərindən istifadə edirlər. "Bolt"un reklamları isə bu tendensiyanı daha da gücləndirir və gəncləri daha çox cəlb edir. Şirkət mərkəzləşmiş post-terminal yarada və ya hər avtomobilə fərdi post-terminal quraşdıra bilmir. Üstəgəl, məhz nağd ödəniş nəticəsində vergidən asanlıqla yayına bildiyinə görə kartla ödənişdə maraqlı deyil". İ.Hüseynli, həmçinin hər birimizə yaxşı tanış olan məqamı xatırlatdı: "Sərnişinlərə heç vaxt tam qiymət deyilmir. Həmişə qalığı olur. İstifadəçilər bir qayda olaraq tam məbləğdə ödəniş edirlər. Və "təsadüfən" sürücünün qalığı qaytarmaq üçün qəpiyi çatmır. Yəni sürücülər qəpiyi də güzəştə getmirlər. Beləliklə, sonunda xeyli "qabağa düşürlər". Kartla ödənişdə isə belə imkan yoxdur. Ümumiyyətlə, fikrimcə, ölkədəki taksilər dünyanın bütün yerlərində olduğu kimi taksimetrə ilə işləməlidirlər".

**Kənan**

# Böyük gəlirlər axacaq

*Azərbaycan nəqliyyat-logistika mərkəzinə çevrilir*

Çin Azərbaycan ərazisindən tranzitlə Niderlanda yük daşımağı planlaşdırır. Bunu Bakı Beynəlxalq Dəniz Ticarət Limanının Strateji Planlaşdırma və İnkişaf Departamentinin rəisi Xudayar Həsənli deyib.

O bildirib ki, son bir neçə il ərzində liman Avropanın iri limanları ilə əməkdaşlığı genişləndirib, bu yaxınlarda isə "Trammo Inc" və Batumi gübrə terminalının sahibi "Wondernet Express Investment Group" şirkətləri ilə anlaşma memorandumu imzalayıb: "Avropada əməkdaşlıq etdiyimiz iri limanlara Venlo, Antverpen və digər limanlar daxildir. Gələcəkdə Çin Venlo limanına blok-qatarlarla yük daşımağı planlaşdırır ki, bu qatarlar da tranzitlə bizim limandan keçəcək". Departament rəhbəri əlavə edib ki, Bakı limanında reallaşdırılması planlaşdırılan iri layihələr ortamüddətli perspektivdə limanın inkişafını sürətləndirəcək, dayanıqlığını və tranzit potensialını, eləcə də beynəlxalq təşkilatların etimadını artıracaq.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Pərviz Heydərov "Şərq"ə açıqlama verib. O qeyd edib ki, Azərbaycanın ən çox investisiya yatırdığı sahələrindən biri də nəqliyyat sektorudur:** "Bu günləri ölkə rəhbərliyi tərəfindən qeyri-neft sektorunun inkişafı əsas prioritet sahələrdəndir. Son illər birinci növbədə nəqliyyat infrastrukturunun inkişafı üçün daha çox işlər görülüb. Yeni yeni dəmiryolları çəkilib, həmçinin mövcud dəmiryolları müasirləşdirilib və yenilənib. Bundan başqa isə altı beynəlxalq hava limanı tikilib və fəaliyyətə başlayıb. Həmçinin, Ələtdə beynəlxalq dəniz limanı inşa olunub. Bütün bunlar Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsindən yararlanaraq prioritet kimi nəqliyyat-logistika mərkəzinə çevrilməsini təmin etməyə xidmət edir. Habelə, gələcəkdə qeyri-neft sektorunun əlavə sahəsi kimi bundan gəlir götürmək, yəni tranzit əldə etməkdir. Təbii ki, bu işlər nəticəsində Azərbaycan kənar dövlətlərin də maraqlarını təmin edəcək".

*P.Heydərov qeyd edib ki, Azərbaycan öz üzərində şimal-cənub, şərq-qərb, eyni zamanda əks istiqamətləri cəmləşdirib ki, bununla da artıq koridora, dəhlizə çevirməyə çoxdan nail olub:* " Bilirsiniz ki, bir neçə gün bundan əvvəl Finlandiyadan yüklənən dəmiryolu vaqonu artıq Azərbaycana daxil olub və burdan da Hindistana yola düşəcək. Bu, şimal-cənub dəhlizinin bir növ açılışı demək idi. Düzdür, bu, pilot xarakteri daşıyırdı. Amma bundan sonra bu reyslər mütəmadi olacaq. Bütün bunlar addım-addım nəhəng dövlətlərdən tutmuş əsas region ölkələrə qədər Azərbaycanı mühüm bir nəqliyyat dəhlizi kimi reallığa çevrildiyini təsdiq edir. Bununla da Azərbaycan böyük məbləğdə tranzit gəlirləri əldə edəcək ki, bu da ölkədə qeyri-neft sektorunun inkişafı üçün əlavə təkan rolunu oynayacaq".



**Ölkənin qeyri-neft sektorunun inkişafı əsas prioritet sahələrdəndir**

**Aynurə Pənahqızı**

(Əvvəli səh: 16-da)

# İstini 45 faizə qədər azaltmaq mümkündür

## Sərinlənməyin 12 "qızıl qaydası"nı hamı bilməlidir

**2. Pərdə və jalüzləri bağlayın.**
Bu, evə daxil olan istinin miqdarını 100-də 45 faiz azaldacaq. Evdə sərinlik yaranacaq.

**3. Ventilyatoru özünüz quraşdırın**
Hava isti və rütubətli deyilsə, bir ventilyatorun önünə bir qabda buz qoyun, elə edin ki, ventilyatorun havası buzun üzərinə əssin. Buz əriyib buxara döndükcə, otaq sərinləşəcək.

**4.Soyuq su püskürdün**
Soyuducuda içində su olan sprey şüşəsi saxlayın. Sizə hədsiz istidirsə, bu soyuq su spreyini müəyyən aralıqla öz üzərinizə sıxın. Bu sizi rahatlandıracaq. Mütəxəssislər bu üsulu "termal tarazlıq" adlandırır. Spreyi ilk olaraq biləklərə və diz qapaqlarına sıxmanız məsləhətdir. Dəri səthindəki su buxarlandıqca bədənin temperaturu enəcək, sərinləyəcəksiniz.

**5. Kompüteri söndürün!**
Əgər gün ərzində kompüterdə çalışırsınızsa, onu elektron saat rejiminə qoyun. Fasilələrlə işləyib, sonra qapansın. Günün sonunda kompüteri ümumiyyətlə söndürün və şəbəkədən ayırın. Noutbukları əsla dizinin üstünə qoymayın. Bu, sizə əlavə istilik gətirəcək.



**6. Nazik, gen libaslar geyinin**
Çit, satin geyimlər bədəninizə yapışmayacaq və sizi incitməyəcək. Tərləmənizi əngəlləyəcək. Ən yaxşı hal tərin bədəndən rahat bir şəkildə buxarlanmasıdır. Gen, pambıq parçadan olan libaslar havanın dəri səthində sərbəst hərəkətinə yol açır və buxarlanmaya yardımçı olur.

**7. Qabyuyan maşından istifadə edirsinizsə, qabları maşın vasitəsilə qurutmayın.** Maşının qapısını açıq qoyun, qablar açıq havada qurusun.

**8. Ayaqyalın gəzməyə üstünlük verin.**
Evdə, mümkün olduğu yerlərdə ayaqyalın gəzin. Ayaqlardakı tər buxarlandıqca qan soyuyur, sonra damarlar bu soyuq qanı bədəninə yayır, beləcə daha artıq sərinlik hiss edərsiniz.

**9. Ədviyyatlı, istiotlu qidalar yeyin.**
İsti havada nə qədər qəribə səslənsə də, istiotlu yeməklər də bədəndə sərinlik əmələ gətirməyə yardımçı olur. Meksika və Hindistan kimi isti ölkələrdə əhali bol ədviyyatlı və istiotlu yeməklərə üstünlük verir. Məsələn, acı bibərin tərkibindəki kapsaisin maddəsi daha asan tərləməyə yardımçı olur. Tər bədəndən buxarlandıqca insan rahatlanır.

**10. Bol meyvə və tərəvəz qəbul edin**
Meyvə və tərəvəz tərkibindəki bol su miqdarı səbəbindən yayın vazkeçilməzləridir.
Bu qidalar digərlərindən, eləcə də ət yeməklərindən daha tez və rahat həzm olunur deyə, insan ağırlıq hissi keçirmir. Orqanizm su ilə təmin edildiyi üçün rahatlanır.

**11. Flüoresan (ağ lampalar) lampalarından istifadə edin**
Adi elektrik lampaları daha çox isti yayır. Uzun ömürlü flüoresan lampaları isə standart lampalardan 70 faiz daha az istilik verir. Bu, mənzilin daha az istilənməsinə səbəb olacaq.

**12. Soyuq kompres edin**
Pambıq corabın içini düyüylə doldurun, "ağzını" bağlayıb soyuducuya qoyun. Nişastalı olduğu üçün düyü soyuğu uzun müddət tərkibində saxlayır. Soyuducudan çıxardığınız corab kompresini dərinizin üstünə - *(çiyin, sinə, ayaqlar, dirsək bükümləri)* qoyub sərinlənə bilərsiniz. Qarnınızın üstünə əsla qoymayın.

**Hazılladı: Məlahət**



# Xaricə gedən hər kəs peyvənd olunmalıdır

## *"Başa düşməliyik ki, peyvənd milyonlarla insanın ölümünün qarşısını aldı"*

Səhiyyə Nazirliyi səyahət edən vətəndaşlara müraciət edib. Müraciətdə deyilir: "İnsanlar hava limanlarında və təyyarələrdə səlahiyyətli orqan tərəfindən müəyyən edilmiş qaydalara ciddi şəkildə riayət etməlidirlər. Hərarətin ölçülməsi, maska, sosial məsafəni qorumaq, lazım olduqda üzlük və əlcək istifadə etmək, kabin içərisində əl çantaları xaricində əşyalar götürməmək kimi qaydalara əməl olunmalıdır".

Bildirilib ki, paylanılan gigiyena dəstləri səyahət zamanı istifadə üçündür: "Yoluxma riski insanın başqaları ilə nə qədər yaxın təmasda olduğu ilə artır. Uçuşlar zamanı yaxın təmas və uzun söhbətlərdən çəkinmək tövsiyə olunandır. Bir çox ölkədə yayılmış COVID-19 yeni ştamlarının ölkə ərazimizə daxil olmaması məhz bizim əlimizdədir. Ölkəmizi qorumağa özümüzdən başlayaq".

Qeyd edək ki, Nazirlər Kabinetinin 5 iyunda imzaladığı qərarından sonra 10 iyun tarixindən etibarən epidemioloji vəziyyətdə müsbət dinamikanın müşahidə edildiyini nəzərə alaraq Rusiya Federasiyası və Türkiyə Respublikasının vətəndaşlarının hava yolu ilə Azərbaycan ərazisinə səfərinə icazə verilib. Həmin qərara əsasən yaşı 18-dən yuxarı olan sərnişinlərin tam vaksinasiya olunması və ya COVID-19 xəstəliyindən sağalması barədə müvafiq ölkənin verdiyi rəsmi sənədin (COVID pasport) və uçuşdan əvvəl 72 saat ərzində COVID-19-a dair PCR testin neqativ nəticəsini təsdiq edən rəsmi sənədin təqdim olunması şərti ilə ölkəmizə səfər edə bilərlər.

**Mövzu ilə bağlı "Şərq"ə açıqlama verən həkim-pulmonoloq Nərminə Rəfiyeva deyib ki, insanlar səyahət edərkən, çox diqqətli olmalıdırlar. Çünki yumşalmalar heç də epidemiyanın sovuşması demək deyil:** "Bir sıra ölkələrdə, o cümlədən Azərbaycanda vaksinasiya prosesi sürətlə davam etməkdədir. Artıq "COVİD 19"-la mübarizənin sonuncu - peyvəndlənmə mərhələsinə gəlib çıxmışıq. Və bu mərhələyə bütün bəşəriyyət olaraq hansı həyəcanları, nə kimi narahatlıqları, itkiləri, riskləri adlayaraq keçib gəldiyimizi də bu günləri hamımız yaxşı xatırlayırıq. "COVID-19" bəlası bütün Yer kürəsini qəfil və hazırlıqsız yaxaladı. Bir çox ölkələr belə bir fövqəladə situasiyaya, pandemiya fəlakətinə hazır deyildi. Ancaq Azərbaycan dövləti pandemiya fəlakətinin ilkin mərhələsində kifayət qədər adekvat davrandı. Pandemiya təhlükəsi başlayanda dövlətimiz təcili preventiv tədbirlər gördü, bir sıra vacib addımlar atdı. Bunun nəticəsində biz pandemiyanın bütün dalğalarını minimum itkilərlə adlamağı bacardıq. Başa düşməliyik ki, peyvənd milyonlarla insanın ölümünün qarşısını aldı. Buna görə də hər bir vətəndaşımız xarici ölkələrə gedərkən mütləq şəkildə peyvənd olunmalıdırlar. Bu, səhiyyə sisteminin rahatlaması və xəstəliyə xərclənən vəsaitlərin azaldılması üçün yeganə üsul olmaqla bərabər, həm də ilk növbədə özümüzün sağ qalmağımızın və doğmalarımızın, dostlarımızın, iş yoldaşlarımızın ölüm təhlükəsindən qorunmasının əsas vasitəsidir. Ona görə də hər kəs vaksinasiya prosesində aktiv olsunlar".

**Aynurə Pənahqızı**

# "Bu gün təhsilin bütün pillələrində nəticələr utancvericidir"

## *Şagirdlər məktəbə ancaq vaxtını keçirməyə və şəhadətnamə almağa gedir*

"Bu gün hər bir təhsil işçisinin nə qədər acı olsa da, etiraf etməli olduğu bir həqiqət var: ölkə təhsili artıq məktəbdən çıxıb, tədricən köçüb özəl təhsil müəssisələrinə və repetitor evlərinə".



"Ölkə təhsili artıq məktəbdən çıxıb, tədricən köçüb özəl təhsil müəssisələrinə və repetitor evlərinə"

**Bu fikirləri "Şərq"ə açıqlamasında məktəb psixoloqu Famil Səfərov deyib.** Psixoloq vurğulayıb ki, əgər bu, əvvəllər yuxarı siniflərdən başlayırdısa, indi təhsilin erkən çağlarından başlayır və artıq kütləvi hala çevrilib: "Bu bərbad, qeyri-peşəkar idarəçiliklə, tamamilə bu xalqın etnopedoqoqikasına, bu günün təhsilalanın psixo-intellektual səviyyəsinə uyğun olmayan Təhsil Proqramı ilə, bu Proqramın tədrisinə əsla hazırlanmayan təhsilverənlər ilə vəziyyət bu hala gəlib. Həmçinin, gərəksiz informasiyalarla doldurulmuş, heç bir pedaqoji-psixoloji prinsiplərə cavab verməyən dərsliklər, dağılmış təlim-tədris infrastrukturu və laboratoriyalar ilə... və daha nələr ilə sadalayıb ürəyinizi bulandırmaq istəmirəm. Odur ki, təhsilə bu yanlış və uğursuz kompleks yanaşmanın nəticəsi olaraq, bu gün təhsilin bütün pillələrində nəticələr utancvericidir. Pedaqoji heyətin 80 faizindən çoxu kurikulumun tədrisini qəbul olunmuş mövcud təlim standartlarına uyğun apara bilmir. Yuxarı sinif şagirdləri ibtidai sinif proqramı səviyyəsində adi riyazi əməliyyatları edə bilmir. Həmçinin kiçik bir mətndə saysız-hesabsız səhvlər buraxır, hətta bəziləri, ümumiyyətlə, heç yazıb oxumağı bacarmır".

**F.Səfərov əlavə edib ki, bu gün şagird məktəbə sadəcə vaxtını keçirməyə və icbari təhsil haqqında sənəd almağa gəlir:** "Görünən odur ki, bu durum həm təhsili bu vəziyyətə salanları, həm qulağı dinc olmaq istəyən valideynləri, həm onsuz da əməyinə layiqincə dəyər verilməyən pedaqoji heyəti və sinifə girib 45 dəqiqəsini birtəhər yola vermək istəyən müəllimi də qane edir. Əlbəttə, hazırda az da olsa, Azərbaycan təhsilində hələ öz peşəsinin vurğunu, fənnini nəyin bahasına olursa olsun, yüksək peşəkərlıqla tədris edən səriştəli müəllimlərimiz kifayət qədərdir. Bu fədakar insanların qarşısında böyükdən kiçiyədək, hamımız baş əyməliyik, onlara səbr, dözüm və can sağlığı arzulayırım".

**Aynurə Pənahqızı**

# Faiq Ağayevdə, Brilliant Dadaşovada aparıcılıq alınırdı

*Qulu Məhərrəmli müğənnilərin aparıcı kimi fəaliyyət göstərməsinə normal baxır, amma...*



Son zamanlar əksər sənət adamı televiziyada aparıcı kimi fəaliyyət göstərir.

Məsələn, Əməkdar artist Elza Seyidcahan, müğənni İzzət Bağırov telekanalların birində aparıcı olaraq çalışırlar. Onlardan başqa Niyam Salami də yaxın günlərdə bu sahəyə addım atıb. Bir az keçmişə nəzər salsaq, aşıq Namiq Fərhadoğlunun da televiziyada yayımlanan bir müsabiqədə aparıcılıq etdiyini görərik. Çoxlarının adını sadalaya bilərik. Təbii ki, aparıcılıq edən şou adamlarının hamısı bu işi bacarmır desək, yanlış olar. Lakin pisləri də var. Misal üçün, ana dilində düzgün yazmağı bilməyən bir adamın efirdə miyonlarla insanın qarşısında aparıcılığı doğrudurmu? Şübhəsiz ki, həmin şəxs proqramda da müəyyən səhvlərə yol verəcəkdir.

Cəmiyyətdə müzakirə doğuran, qurunun oduna yaşı yandıran da elə bu kimi hallardır.

**Mövzu haqda "Şərq"ə danışan BDU-nun "Jurnalistika" fakültəsinin professoru Qulu Məhərrəmli bütün peşə sahiblərinin, o cümlədən sənətçilərin aparıcı ola biləcəyini söyləyib:** "Lakin aparıcı üçün şərtlər, keyfiyyətlər mövcuddur. Müğənni tamaşaçı ilə ünsiyyət yaradıb, müsahibini danışdıra bilmirsə, özünün izləyiciyə deyiləsi sözü yoxdursa, onun aparıcılığı heç də yaramır. Bu baxımdan auditoriya həmin aparıcıları qəbul etmir. Bizdə sənət adamlarından aparıcılığı bacaranlar da olub. Məsələn, Faiq Ağayevdə, Brilliant Dadaşovada aparıcılıq alınırdı. Belə nümunələr də var. Ümumilikdə isə səviyyə yüksək olmalıdır ki, o, danışdığı predmeti yaxşı bilsin. Nitqi, görünüşü, ünsiyyət yarada bilmə bacarığı üzdə olmalıdır. Əks halda onları qəbul etmək çətin olur".

**Samirə Ərəblinski**



## "Mənə söz atanda cavabını verirəm"

Afət Roza Zərgərli ilə qalmaqalını xatırladı

**"İki il əvvəl Nəsiminin qəzəlinə mahnı oxuyanda mənə replika atan sənət dostlarımdan biri də Roza Zərgərli idi".**

**"Şərq" xəbər verir ki, bu sözləri instaqram hesabında müğənni Afət Fərmanqızı deyib. O, açıqlamasına bunları da əlavə edib:** "Bir video çəkib paylaşmışdı. Həmin kadrı yenidən yayırlar. Mən də bu məsələyə aydınlıq gətirirəm. Çünki hamıya bir-bir cavab yaza bilmirəm. Orada Roza xanım mənə "həşərat" demişdi. Mən də həmin dəqiqə onun bir kişi ilə fotosunu paylaşdım. Yazdım ki, "Bakı vaxtilə" efirdədir. Geniş cavab verməyə zamanım olmadı. Biz bir il küsülü qaldıq. İndi isə dostuq. O, köhnə videodur. Səhifəmdə əvvəlki illərə baxsaz, görərsiz ki, o şəkil də, altında yazılanlar da var. Heç vaxt kiməsə söz atmıram. Mənə söz atılanda cavabını verirəm".

**Samirə**

## "...Bu artıq çox yaxınlıqdı"

Nadir və Ayanın görüntüləri söz-söhbətlərə yol açdı



**Müğənnilər Nadir Qafarzadə və Ayan Babakişiyeva sosial şəbəkələrdə tənqid olunublar.**

"Şərq" xəbər verir ki, buna səbəb onların növbəti kliplərindən səmimi görüntülərini paylaşmaları olub. N.Qafarzadəyə izləyiciləri irad bildiriblər.

**Məsələn, "Sevdaabbasova65" adlı istifadəçi** "Məncə bu, artıq çox yaxınlıqdır" rəyini yazıb.

**"Aslan_a19":** Bu qədər yaxınlıq olmaz.

"Zaur_taxmina": Vallah, sizin həyat yoldaşınıza halal olsun, sizi qısqanmır. Bütün günü qucaq-qucağasınız".

**Samirə**

## "Kartına 25 min manatı kim vurub?"

Efirdə əxlaqsızlıq təbliğ olundu



**"Həmin Zaur" proqramında növbəti dəfə biabırçılıq yaşanıb.**

"Şərq" xəbər verir ki, verilişin qonağı Mehriban Qənbərova adlı müğənni olub. Bu zaman aparıcı Zaur Kamal ona "Kartına 25 min manatı kim vurub?" sualını ünvanlayıb. İfaçı isə bunları söyləyib: "Ümumiyyətlə belə bir şey olub ki? Sən artıq evə dava salırsan".

Zaur isə ona ""Qa" deyəndə çörək, "Qu" deyəndə su hazır olur" deyə cavab verib. M.Qənbərova "Mənə dəyməz?" deyə əlavə edib. Zaurdan müğənniyə cavab gecikməyib:

"Onu mən bilmirəm. Haradan bilim? Sənə ev də alıblar".

Bu məlumatı təsdiqləyən ifaçı evinin iki mərtəbəli olduğunu bildirib. Z.Kamal isə belə deyib: "Nə edirsən, əcəb edirsən".

**Samirə**

# "Deyəcək sözlərim var"

*Vüsalə Əlizadə: "Övladım həyatı başa düşəcək bir yaşa gələndə biləcək"*

Aparıcı Vüsalə Əlizadə ilk dəfə Azər Zahidlə boşanmasından danışıb. "Şərq" xəbər verir ki, o, "Onun sirri" proqramında 9 ildir ayrıldıqlarını söyləyib:

"Diləyin bir yaşı olanda boşandıq. İndiyə qədər heç vaxt heç yerdə onun özü və ailəsi ilə bağlı xoşagəlməz söz işlətməmişəm. Bunu ailəmdən aldığım tərbiyəyə, insani keyfiyyətlərimə və qız övladı böyütməyimə görə etməmişəm. Xüsusilə vurğulayıram ki, hansısa bir məbləğ, hətta milyon belə məni bu mövzuda danışdıra bilməz. Mənə çox təzyiqlər oldu. Adımı yersiz hallandırdılar, bəzən ünvanıma təhqirlər səsləndirdilər. Lakin Diləyə görə susdum. Deyəcək sözlərim var. Hər şey arxivdir. Övladım həyatı başa düşəcək bir yaşa gələndə biləcək. Ondan danışmaq istəmirəm. Ailəsi var, özü bilər. Mən övladımla çox xoşbəxtəm. Diləyin sevgisi mənə dünyadır. Deyirlər, elin ağzı torba deyil ki, büzəsən. Ailəm, qohum-əqrəba, hamı bilir ki, mənim bir qram belə səhvim olmayıb. Sadəcə biz anlaşmamışıq. Problemlər bundan yaranıb. Mən sağlamlığımı təhlükəyə atıb övlad dünyaya gətirmək üçün ölümümə imza atdım. Azərbaycanda böyrək köçürmədən sonra uşaq dünyaya gətirən ilk qadınam. Bu həm qəhrəmanlıqdır, həm də həyatımdır. Böyrək köçürmə çox xanımda olub. Hər kəs bu riskə



getmir. Həkimlərimiz də məsuliyyəti boyunlarına götürmürdü. Mənə təklif olundu ki, uşağı tələf etmək lazımdır. Ona görə sənəd imzaladım. Ailəmi qorumaq üçün hər riski gözə almışdım".

*Qeyd edək ki, A.Zahid və V.Əlizadənin bir qız övladı var.*

**Samirə**

# "Onun xəstəliyini gizlədirdik"

*Xatun mərhum qardaşı haqqında danışıb*

Müğənni Xatun Əliyeva "Söhbət var" verilişində mərhum qardaşı stilist balaşdan danışıb.

**"Şərq" xəbər verir ki, o, ilk dəfə qardaşının xəstəliyindən söz açıb:** "Onun xəstəliyini gizlədirdik. Aşkar olundu. Lakin gecikmişdik. Balaşı xəstələnən görməmişdim. Qızdırması olsa belə işləyirdi. Bilmirəm, ağrısımı olmayıb, hiss etməyib.



Dekabrın 9-da xəstəlik üzə çıxdı. Bir ay biz xaricə üz tutduq. Burdakı həkimlər də əllərindən gələni etdilər. Deyirdilər ki, siz gecikmisiniz. Artıq xəstəliyin 4-cü mərhələsidir. Sağalması mümkün deyildi. Nəsə edə bilmədik. Bu cameədən təkcə Dilarə Əliyevaya demişdim. Görüşdük, söylədi ki, nə olub? Həmişəki kimi deyilsən. Mən də ona danışdım. Cəhənnəmi yaşadım. Ailəmiz, anam, atam, yaxın qohumlarımız da həmçinin. O, başqa bir insan idi. Deyirdi ki, güclü olmalısan. Məni həvəsləndirirdi, arzular edirdik.

Hər an bir yerdə idik. İndi mənim üçün çox çətindir. Gözəllik salonunun qapısından içəri girəndən çıxana qədər nələr yaşayıram, Allah bilir".

**Samirə**

# TƏKRAR HƏRRACLARIN KEÇİRİLMƏSİNƏ DAİR ELANLAR

Şəmkir rayon İcra İdarəsinin 02.06.2021-ci il tarixli, 1701/2021-12 saylı sifarişi ilə, Şəmkir şəhəri, Ü.Hacıbəyov küçəsi, 2-ci döngə, 4 saylı ünvanda yerləşən 0,05 ha torpaq sahəsi və 3 otaqdan, mətbəx, zal, hamam və tualetdən ibarət, ümumi sahəsi 119,1 kv.m. olan 1 (bir) mərtəbəli, orta təmirli fərdi yaşayış evinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin fərdi yaşayış evi ilkin satış qiyməti olan 60.000 (altmış min) manatdan 10% aşağı, yəni 54.000 (əlli dörd min) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 2.700 (iki min yeddi yüz) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Şəmkir rayon İcra Şöbəsinin 02.06.2021-ci il tarixli, 144355/2019-12 saylı sifarişi ilə, Şəmkir şəhərində yerləşən 0,8281 ha torpaq sahəsinə dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin torpaq sahəsi ilkin satış qiyməti olan 3.500 (üç min beş yüz) manatdan 10% aşağı, yəni 3150 (üç min bir yüz əlli) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 13 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 5%-i, yəni 157,5 (bir yüz əlli yeddi manat əlli qəpik) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

Bakı şəhəri Nərimanov rayon İcra Şöbəsinin 7185-240154/2018-15-27 saylı, 10.06.2021-ci il tarixli sifarişi ilə, 1 (bir) ədəd balans aparatı (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd yağ dəyişən aparat (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd tozsoran dərmanvurma aparatı ilə birgə (istifadə olunmuş vəziyyətdə), 3 (üç) ədəd başakçı təkər qaldırıcı (istifadə olunmuş vəziyyətdə), 2 (iki) ədəd təkər açan (istifadə olunmuş vəziyyətdə), 1 (bir ədəd) yuyucu aparat (işləmir), 1 (bir) ədəd kompressor (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd təkər sökən (istifadə olunmuş vəziyyətdə), 1 (bir) ədəd avtomobil qaldırıcıya (istifadə olunmuş vəziyyətdə) dair 30 iyun 2021-ci il, saat 11:00 (növbəlik qaydasında) təyin edilmiş ilkin hərrac, hərracın iştirakçısı olmaması səbəbindən baş tutmadığından, həmin avadanlıqlar ilkin satış qiyməti olan ümumilikdə 9.500 (doqquz min beş yüz) manatdan 10% aşağı, yəni 8.550 (səkkiz min beş yüz əlli) manata təkrar açıq hərraca çıxarılmışdır.

Təkrar hərrac 23 iyul 11:00 (növbəlik qaydasında) tarixinə təyin edilmişdir.

Təkrar hərracda iştirak üçün satış qiymətinin 10%-i, yəni 855 (səkkiz yüz əlli beş) manat miqdarında beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 1 (bir) iş günü qalanadək hərrac təşkilatçısının hesabına və ya nəğd qaydada ödənilməlidir.

Hərrac addımı - ilkin satış qiymətinin 1%-dən çox olmamaqla

(Əlavə olaraq "Qeyd"ə bax).

---

*QEYD: Yuxarıda göstərilən hərracda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır. 1) Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq); 2) Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın təşkilatçısına ödənildiyini təsdiq edən sənəd; 3) Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;*

*4) Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;*

*5) Torpaq sahələri hərracı üzrə xarici, hüquqi və fiziki şəxslər hərraca buraxılmırlar;*

*6) Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;*

*7) şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;*

*8) Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beş məbləği 2 (iki) iş günü ərzində geri qaytarılır.*

*9) Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) iş günü müddətində geri qaytarılır;*

*10) Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;*

*11) Qalib gəlmiş şəxs qanunvericiliyə uyğun tərtib edilmiş protokolu hər hansı üzürlü səbəbi olmadan imzaladıqda, yaxud əmlakın dəyərini ödəməkdən imtina etdikdə verilən beh geri qaytarılmır. Hərracın qalibi hərracın yekunları barədə protokolun tərtib edildiyi vaxtdan ən geci 3 (üç) iş günü ərzində ödəməli olduğu pul vəsaitini "sifarişçi" icra qurumunun depozit hesabına köçürməlidir.*

**Hərracın təşkilatçısı "Əmlak Hərrac Mərkəzi" MMC**

**Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.**

**Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56 e-mail: info@e-herrac.com**

**rəsmi internet saytı: e-herrac.com**

## Azercell-in Səyyar Diş və Göz Klinikaları əhaliyə təmənnasız xidmət göstərməyə davam edir

### 2021-ci ilin ikinci rübündə 400-dən çox xüsusi qayğıya ehtiyacı olan şəxs müayinə və müalicə olunub




**"Azercell Telekom" MMC-nin Səyyar Diş və Göz Klinikaları son üç ayda bütün təhlükəsizlik və gigiyena qaydalarına riayət olunmaqla 400-dən çox aztəminatlı, xüsusi qayğıya ehtiyacı olan şəxsə xidmət göstərib.**

Belə ki, Azercell-in Səyyar Diş Klinikasında bu ilin ikinci rübü ərzində 166 nəfərə təmənnasız tibbi yardım göstərilib. Aprel ayında klinikanın həkimləri Suraxanı rayonunda şəhid, qazi və aztəminatlı ailələrin övladlarını (46 nəfər) müalicə və müayinə ediblər. May ayında Masazır qəsəbəsindəki 56 saylı Kəlbəcər tam orta məktəbinin 50-yə yaxın şagirdi müayinədən keçib. İyun ayında isə Gürgən qəsəbəsində xidmətdə olan klinikada 71 uşağın diş problemi aradan qaldırılıb. Ümumilikdə bu ilin ilk yarısında Azercell-in Səyyar Diş Klinikasında 218 nəfər müalicə alıb. Hesabat dövründə Azercell-in Səyyar Göz Klinikası da öz növbəsində oftalmoloji problemləri olan şəxslərə yardımını əsirgəməyib. Son 3 ayda Azərbaycanın müxtəlif bölgələrinə səyahət edən klinikanın həkimləri 267 nəfərə kömək göstəriblər. Təkcə iyun ayında 120 xəstə (93 böyük, 27 uşaq) pulsuz müayinə və müalicə olunub. Onlar arasında şəhid və qazi ailələrinin üzvləri, aztəminatlı ailələrin uşaqları, uşaq və gənclər təşkilatlarının üzvləri də var. 2021-ci ilin əvvəlindən bu günədək klinikanın həkimləri tərəfindən göz problemi olan 372 nəfərə (230 böyük, 142 uşaq) yardım edilib. Bu müddət ərzində klinikanın heyəti Bakı ilə yanaşı, Sumqayıt, Pirallahı və Zirə qəsəbələri, Quba, Ucar, Kürdəmir rayonu, Siyəzən rayonları, Xudat şəhərində səyyar şəkildə xidmət göstərib. Beləliklə, Azercell-in Səyyar Klinikaları bu il ərzində ümumilikdə 600-ə yaxın şəxsə ödənişsiz tibbi xidmət təqdim edib. Qeyd edək ki, "Azercell Telekom" MMC-yə məxsus və 10 ildən çox müddətdə xüsusi qayğıya ehtiyacı olan əhaliyə təmənnasız xidmət edən səyyar klinikalar "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyinin dəstəyi ilə fəaliyyət göstərir.

**Elan**

"Bakı Hərrac Mərkəzi" MMC Lot 201/21. İsmayıllı şəhəri, Nizami küçəsində 0,2774 ha. torpaq sahəsində yerləşən ü/s 945,5 kv.m olan qeyri-yaşayış binasının 05 iyul 2021-ci il tarixdə keçirilən təkrar hərracı baş tutmuşdur.

---

Cəfərov Məhəbbət Əli oğlunun adına verilmiş Nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1205

ŞƏRQ 6 iyul 2021-ci il № 117 (5398) (çərşənbə axşamı) Maraqlı



# Dünya rekordu qırıldı

10 dəqiqəyə 76 sendviç yedi

**ABŞ-da 4 iyul Müstəqillik Günü əyləncəsi çərçivəsində təşkil edilən sosiska yemək yarışmasında Coy Cestnut adlı şəxs 10 dəqiqədə 76 sendviç yeyərək dünya rekordunu qırıb.**

"Şərq" "Haberglobal.com"a istinadən bildirir ki, rəqiblər hər il iyulun 4-də Coney Adasındakı dünyaca məşhur fast food şəbəkəsi olan "Nathans" tərəfindən təşkil edilən yarışmaya qatılıblar. Əvvəlki illərdə dəfələrlə çempionluq qazanan Cestnut 10 dəqiqədə 76 sosiska yeyərək 14-cü dəfə yarışmada qalib gəlib. Keçən il 75 sandviç ilə rekord qıran Cestnut bu dəfə 76 sendviç yeməklə rekordunu yeniləyib.

**Yeganə**

# Bayden Ravisin qarşısında diz çökdü



**ABŞ Prezidenti Cozef Bayden İsrail Prezidenti Reuven Rivlinin şəxsi katibi Rivka Ravisin qarşısında diz çöküb.**

"Şərq" "Sabah.com"a istinadən xəbər verir ki, Reuven Rivlinin iyunun 28-də Ağ Evi ziyarəti zamanı çəkilən foto yayılıb. Fotoda Cozef Baydenin ultra ortodoks Rivka Ravisin qarşısında diz çökdüyü görünür. Bildirilib ki, Reuven Rivlin ABŞ prezidentinə şəxsi katibinin 12 uşaq anası olduğunu deyəndə Cozef Bayden Ravisin qarşısında diz çöküb.

**Yeganə**

# Fəhlələr də sıradan çıxır

Tikinti sektorunda işləyə biləcək robot istehsal olunub



**Yaponiya şirkəti tikinti sektorunda işləyə biləcək robot istehsal edib.**

"Şərq" xarici mətbuata istinadən xəbər verir ki, yeni robot bir çox funksiyalara malikdir. "Atlas" adlı robot qaça, rəqs edə və gimnastika hərəkətləri edə bilər. Bu robotun əsasən fəlakət bölgəsində faydalı olacağı düşünülür. O, insandan üç dəfə böyükdür və fiziki cəhətdən insana bənzəyir. Robotun hər əlində cisimləri tuta biləcək üç barmağı var. Sınaq zamanı robot yalnız yüngül polimer çubuq və futbol topu tutub, lakin o, daha ağır obyektlərini tutmaq qabiliyyətinə malikdir.

**Aynurə**

# Karton qutuda körpə cəsədi tapılıb

Cəsədi görən adam polisə xəbər verib



**Karton qutuda yeni doğulmuş körpə cəsədi tapılıb. Dəhşətli hadisə Türkiyədə baş verib.**

"Şərq" Türkiyə mediasına istinadən xəbər verir ki, polis əməkdaşları Bursa şəhərində, yaşıllıq bir ərazidə karton qutuda yeni doğulmuş körpə cəsədi aşkarlayıblar. Səhər saat 11:00 radələrində Harmanlar Caddəsi ilə hərəkət edən bir nəfər yaşıllıq ərazinin kənarı ilə hərəkət edərkən karton qutu diqqətini çəkib. Qutunun içində nə olduğu adamın marağına səbəb olub, yaxınlaşıb baxdıqda qutunun içində körpə cəsədi görüb. Cəsədi görən adam polisə xəbər verib, polis əməkdaşları hadisə yerinə gəlib. Hadisə yerini araşdıran polis əməkdaşları qutunun içindəki körpənin cansız bədəni ilə qarşılaşıblar. Cəsəd tibbi ekspertizaya təhvil verilib. Baş vermiş hadisə ilə bağlı istintaq tədbiləri başlanıb.

**Məlahət**





# İstini 45 faizə qədər azaltmaq mümkündür

*Sərinlənməyin 12 "qızıl qaydası"nı hamı bilməlidir*







**Qızmar havalarda necə sərinlənək? Hazırda hamını, hər kəsi düşündürən budur! Kondisioner, ventilyator xəstəlik mənbəyi, bədəni quru-dub sümüklərimizə dəhşətli ağrı verdiyindən, baş ağrısı, mədə-bağırsaq pozuntusuna səbəb olduğundan, həkimlər daha sadə, daha rahat yollarla sərinlənməyin 12 "qızıl qaydası"nı açıqlayır. Budur, sərinləmək hiylələri:**

1. Çöldəki hava quru və içərideki havadan daha sərindirsə, açıq pəncərə önünə nəm mələfə, ya da dəsmal sərin. Beləcə, çöldən gələn sərinlik buxara dönən su tərəfindən soyudulacaq və otaqda sərin hava yaranacaq.

*(Davamı səh: 13-də)*

**Hazılladı: Məlahət**

# Uğur Şahindən gözəl xəbər...

3-4 ay içində Türkiyə əvvəlki həyatına dönəcək



**BioNTech firmasının qurucuları Prof. Dr. Uğur Şahin və Dr. Həsrət Türeci, "Qürur Naqişləri" olaraq Türkiyənin Sabancı Universitetinin "Məzuniyyət Mərasiminə" video konfrans şəklində qatılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, pandemiyanın hər şeydən əvvəl elm və araşdırmalarda necə bir fərq yaratdığını bütün dünyaya göstərdiyini vurğulayan Prof. Dr. Uğur Şahin, bir elm insanı olaraq, təhsilləri və on ildən çox araşdırmaları sayəsində həmkarları, mütəxəssislər və etibarlı elm insanları ilə bir fərq yaratmağı bacardıqlarını ifadə edib. Sabancı Universiteti məzunlarını diplomları üçün təbrik edən Şahin, "Bu gün bacardıqlarınız, gələcəyinizə doğrudan təsir edəcək. Bu günü əsla unutmayın, bu gün sizin üçün çox əhəmiyyətli bir gündür" deyib. Şahin nitqini belə davam etdirib: "Normal həyatlarımıza dönəcəyimizdən əminəm. Peyvəndlənmənin pandemiyanı nəzarət altına almaq mövzusunda yardımını görürük. Bu səbəbdən hər kəsin peyvənd olunması çox əhəmiyyətlidir. Bu ehtimalla 3-4 ay içində Türkiyə əvvəlki həyatına dönəcək. Pandemiyanın bizə öyrətdiklərindən dərs almağımız çox əhəmiyyətlidir, bunlardan biri də elm və əməkdaşlığın nə cür böyük bir fərq yarada biləcəyi oldu. Bu səbəbdən, gələcəyə optimist bir şəkildə baxmalı və elmə, təhsilə, araşdırmaya sərmayə qoyaraq əməkdaşlığa daim açıq olmalıyıq".

**Turan**



# Oyun oynadı, işə düşdü

6 yaşlı uşaq zibil qutusundan güclə çıxarıldı

**Türkiyənin Batman şəhərində şok edən hadisə baş verib.**

"Şərq" "Habertürk"ə istinadən bildirir ki, altı yaşlı uşaq oyun oynadığı vaxt beton zibil qutusunun içinə girib və çıxa bilməyib.

Ətrafdakı insanlar bunu başa düşəndən sonra FHN-ə xəbər veriblər. Bir saatlıq xilasetmə əməliyyatından sonra uşaq zibil qutusundan çıxarılıb.

**Kənan**